QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 218 (6182) 5 dekabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# "Azərbaycan virusun yayılmasının qarşısını almaq məqsədilə vaxtında zəruri tədbirlər həyata keçirib"

*Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində keçirilmiş Xüsusi Sessiyasında çıxış edib*



Bax2

## Əli Əhmədov: "Fransa Milli Assambleyası Senatın səhvini və günahını təkrar edir"



*Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov Fransa Milli Assambleyasının ötən gün Qarabağla bağlı qəbul etdiyi məlum bədnam qətnamə ilə bağlı fikirlərini özünün rəsmi fa-*

Bax 4

## Ceyhun Bayramov Belarusun səfiri ilə görüşüb



Cari ilin 4 dekabr tarixində xarici işlər naziri Ceyhun Bayramov Belarus Respublikasının Azərbaycan Respublikasındakı səfiri Gennadi Axramoviçi diplomatik fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etdi.

Bax 4

## Azərbaycan Ordusunda Vətən müharibəsi şəhidlərinin xatirəsi anılıb

Bax 7



Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən saat 12:00-da Əlahiddə Ümumqoşun Ordusu, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində...

## Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub

Bax 6



## Artur Vanesyan: "Paşinyanın istefası ləyaqətimizin qorunması deməkdir"



Paşinyanın istefası bizə ləyaqətimizi qorumağa şans vermək deməkdir. SİA Ermənistana məxsus hayeli.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, "İndependent" Ermənistanda Nikol Paşinyanın istefasını tələb edən aksiyalar barədə məqalə dərc edib və bu haqda...

Bax 13

## Peskov: "Qarabağın Azərbaycana mənsubluğu BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri ilə müəyyən edilib"



*Dağlıq Qarabağın Azərbaycana mənsubluğu BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri ilə müəyyən edilib. AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.*

Bax 3

## Heydər məscidində Vətən müharibəsi şəhidlərinin xatirəsinə vəhdət namazı qılınıb



Bax 6

## Bakıdakı xristianlar və yəhudilər şəhidlərimizi yad ediblər



## Robert Levandovski dünyanın ən yaxşı futbolçusu seçildi



Bax 16

# “Azərbaycan virusun yayılmasının qarşısını almaq məqsədilə vaxtında zəruri tədbirlər həyata keçirib”

*Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində keçirilmiş Xüsusi Sessiyasında çıxış edib*

***Dekabrın 3-də Nyu-Yorkda BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada çıxış edib.***



Prezident İlham Əliyevin çıxışı
- Hörmətli cənab Sədr.

Hörmətli cənab Baş katib.

Hörmətli dövlət və hökumət başçıları.

BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş Xüsusi Sessiyasının təşkilində göstərdikləri səylərinə görə BMT-nin Baş katibi cənab Antonio Quterreşə və BMT Baş Assambleyasının Sədri cənab Volkan Bozkıra öz minnətdarlığımı ifadə edirəm.

Xüsusi Sessiyanın təşkil olunması təşəbbüsünü dəstəkləyən bütün üzv dövlətlərə də təşəkkürümü bildirirəm.

Bu gün dünya üçün ən böyük təhlükə olan COVID-19 pandemiyası ilə mübarizədə beynəlxalq ictimaiyyətin birgə səylərinə çox böyük ehtiyac var.

Milli və beynəlxalq səviyyədə məsuliyyət nümayiş etdirən Azərbaycan Qoşulmama Hərəkatının Sədri qismində 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun koronavirusla mübarizəyə həsr edilmiş Zirvə görüşünün keçirilməsinin təşəbbüskarı olmuşdur. Mən Zirvə görüşü çərçivəsində BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasının keçirilməsini təklif etmişdim. Qoşulmama Hərəkatının bütün 120 üzvü həmin təklifi dəstəkləmişdir. Bu, onların “Bandunq Prinsipləri”, Hərəkatın dəyərləri, multilateralizm və beynəlxalq həmrəyliyə sadiqliyini bir daha vurğulamış oldu. Ümumilikdə, BMT-nin 150-dən artıq üzv dövləti həmin təşəbbüsü dəstəkləmişdir.

Azərbaycan virusun yayılmasının qarşısını almaq məqsədilə vaxtında zəruri tədbirlər həyata keçirmişdir. COVID-19 ilə bağlı yaranmış vəziyyətə müvafiq olaraq tərəfimizdən adekvat addımlar atılmışdır.

Bu gün ölkə üzrə koronaviruslu xəstələr 46 dövlət xəstəxanasında müalicə olunur. Pandemiya başladığı zaman bizim 6 funksional laboratoriyamız var idi. Hazırda fəaliyyətdə olan laboratoriyalarımızın sayı 40-dan artıqdır.

Pandemiyanın mənfi təsirinin qarşısının alınması məqsədilə hökumət tərəfindən 2.5 milyard ABŞ dolları həcmində iqtisadi-sosial yardım və maliyyə dəstəyi paketi təqdim edilmişdir. Sosial yardım tədbirləri 5 milyon insanı əhatə edir ki, bu da ölkə əhalisinin yarısı deməkdir. Koronavirusla mübarizə heç bir xarici maliyyə dəstəyi olmadan, yalnız daxili mənbələr hesabına maliyyələşdirilmişdir.

Hazırda dünya pandemiyanın növbəti dalğası ilə üzləşib.

Pandemiya başlayandan bəri Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx təmasdadır. Biz pandemiyanın ilk vaxtlarında dəyərli tövsiyələrinə və öz mütəxəssislərini ölkəmizə ezam etdiyinə görə təşkilata minnətdarıq. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizədə nümunəvi ölkə adlandırmışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatına toplam 10 milyon ABŞ dolları həcmində iki dəfə könüllü maliyyə töhfəsi etmişik. Bununla yanaşı, bu günədək Azərbaycan 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərmişdir.

Cənab Sədr, Azərbaycan pandemiya dövründə qlobal atəşkəslə bağlı BMT Baş katibinin təşəbbüsünü dəstəkləmişdir. Lakin həmin çağırış 30 ildən artıq Azərbaycan torpaqlarını işğal altında saxlayan və BMT Təhlükəsizlik Şurasının işğal olunmuş bütün ərazilərimizdən qoşunların çıxarılmasını tələb edən qətnamələrinə məhəl qoymayan Ermənistan tərəfindən eşidilməmişdir.

Son iki il ərzində Ermənistan danışıqlar prosesini məqsədyönlü şəkildə məhv etmişdir. Ermənistanın baş naziri “Qarabağ Ermənistandır” kimi bir sıra təxribatçı bəyanatları ilə danışıqlara son qoymuşdur. Ermənistanın müdafiə naziri “yeni ərazilər uğrunda yeni müharibə”yə çağırış etmişdir.

Cari ilin iyul ayında Ermənistan regionda yeni gərginlik mənbəyi yaratmaq, yeni əraziləri işğal etmək və Azərbaycanın strateji enerji infrastruktur layihələrinə zərbə vurmaq məqsədilə dövlət sərhədində hərbi təxribat törətmişdir.

Daha sonra, avqust ayında Ermənistanın diversiya qrupu təmas xəttini keçməyə cəhd etmişdir.

Sentyabrın 24-də BMT Baş Assambleyasının ümumi müzakirələri çərçivəsində çıxışım zamanı mən Ermənistanın yeni müharibəyə hazırlaşması ilə bağlı xəbərdarlıq etmişdim.

Sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı irimiqyaslı hərbi təxribata başlamışdır. Azərbaycanın döyüş bölgəsinə yaxın ərazilərdə yerləşən Tərtər və digər şəhərləri 44 gün ərzində Ermənistan silahlı qüvvələri tərəfindən ağır artilleriya atəşinə məruz qalmışdır. Ermənistan döyüş bölgəsindən uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Qəbələ, Siyəzən və digər şəhərlərə qarşı ballistik raketlərdən istifadə etmişdir. Ermənistan azərbaycanlı mülki əhali arasında böyük sayda insan itkisinə səbəb olmaq və onları didərgin salmaq məqsədilə ağır artilleriya, ballistik raketlər, ağ fosfor və kasetli sursatlardan istifadə etmişdir. Nəticədə 11 nəfəri uşaq olmaqla, 94 mülki şəxs qətlə yetirilmiş, 400-dən artıq insan yaralanmışdır.

Azərbaycan Ordusu bunun layiqli cavabını vermiş, ölkə vətəndaşlarını və ərazisini müdafiə edərək uğurlu əks-hücum əməliyyatı başlamış və işğal olunmuş ərazilərin böyük bir hissəsini azad etmişdir. Hərbi əməliyyatlar zamanı qazanılmış Qələbə işğalçını təslim olmağa məcbur etmişdir. Azərbaycan və Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanması nəticəsində Azərbaycanın işğal altında olan digər əraziləri də azad edilmişdir.

O vaxtdan etibarən, təqribən bir aydır ki, atəşkəsə əməl olunur. Atəşkəsə Nəzarət üzrə Birgə Monitorinq Mərkəzi vasitəsilə Türkiyə və Rusiya atəşkəsin təmin edilməsi işində vacib rol oynayır.

Beləliklə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hərbi-siyasi yollarla həll edilmişdir. Beynəlxalq hüquqa məhəl qoyulmadığı üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin güc yolu ilə icrası qaçılmaz idi. Nəticədə təcavüzkar dövlət sülhə məcbur edilmişdir.

Bu, Ermənistanın destruktiv yanaşmasının yeganə nümunəsi olmamışdır. Ermənistan BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş Xüsusi Sessiyasının keçirilməsi təşəbbüsünün əleyhinə çıxış etmişdir. Ermənistan son dəqiqəyə qədər Xüsusi Sessiyanın keçirilməsi üçün hazırlıq prosesinə mane olmağa çalışmışdır. Ermənistanın bu təşəbbüsə etiraz etməsinin yeganə səbəbi onun Azərbaycan tərəfindən irəli sürülməsi olmuşdur. İnanıram ki, Xüsusi Sessiya pandemiya ilə qlobal mübarizəyə öz töhfəsini verəcək və bizi ümumi hədəflər ətrafında daha da sıx birləşdirəcəkdir. Sağ olun.

## BERNAMA agentliyi Prezident İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasındakı çıxışını geniş işıqlandırıb

Malayziyanın BERNAMA Milli İnformasiya Agentliyi Qoşulmama Hərəkatının sədri, Azərbaycan Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasında çıxışı barədə AZƏRTAC-a istinadla geniş material yayıb.




“Qoşulmama Hərəkatının sədri, Prezident İlham Əliyev COVID-19-a qarşı BMT-nin reaksiyasını təqdir edib” sərlövhəli materialda dövlətimizin başçısının Dünya Səhiyyə Təşkilatının pandemiya ilə mübarizədə üzv dövlətlərin tələbatını öyrənmək üçün Hərəkatın üzvü olan dövlətlərin sorğu materiallarından istifadəsini yüksək qiymətləndirdiyi qeyd edilib.

Prezident İlham Əliyevə istinadla bildirilib ki, pandemiyanın misli görünməmiş universal fəsadlarının aradan qaldırılması üçün qlobal səylərə töhfə vermək və Qoşulmama Hərəkatına üzv dövlətlərə operativ, adekvat və əhatəli yardımın göstərilməsi məqsədilə Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının COVID-19-a qarşı Təmas Qrupunun onlayn Zirvə görüşünü təşkil edib.

Məqalədə vurğulanıb ki, Azərbaycan Prezidenti Qoşulmama Hərəkatına üzv olan 120 dövlətin adından BMT sisteminin COVID-19-la bağlı fəaliyyətini yüksək qiymətləndirərək deyib: “Hərəkat COVID-19 pandemiyası ilə bağlı artmaqda olan çağırışlarla mübarizədə beynəlxalq ictimaiyyət tərəfindən təsirli tədbirlərin görülməsi üçün təlimatların verilməsi, təlimlərin və avadanlıq, konkret xilasetmə xidmətlərinin təşkili sahəsində Ümumdünya Səhiyyə Təşkilatının və onun rəhbərliyinin mühüm rolunu tam şəkildə dəstəkləyir”.

Pandemiyanın istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrdə zəifliklərini və bərabərsizliyi aşkara çıxararaq onları daha da kəskinləşdirməsi, habelə yoxsulluğu dərinləşdirərək ən həssas kateqoriyadan olan insanların vəziyyətini daha da ağırlaşdırması barədə Prezident İlham Əliyevin fikirləri oxuculara diqqətinə çatdırılaraq vurğulanıb ki, pandemiya ən yoxsul və zəif vəziyyətdə olan ölkələrə daha çox zərbə vurub. Qeyd edilib ki, Qoşulmama Hərəkatı böhranın davam edən fəsadlarının böyük çətinliklə əldə olunmuş nailiyyətləri geri atacağından və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində tərəqqiyə mane olacağından dərin narahatlıq keçirir.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhidlərimizin xatirəsini yad ediblər







***Dekabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəhidlər xiyabanında olub və şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad ediblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil, birinci xanım Mehriban Əliyeva gül dəstəsi qoydular. Azərbaycanın dövlət himni səsləndirildi.***

Qeyd edək ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş Vətən müharibəsinin qəhrəman şəhidlərinin əziz xatirəsi ölkəmizin hər yerində, məscidlərdə, kilsələrdə, sinaqoqlarda dərin ehtiram hissi ilə yad edilib. Allah şəhidlərimizə rəhmət eləsin!

# Prezident İlham Əliyev: Şəhidlərimizi ehtiramla yad edirik!






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızla bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının "Facebook" səhifəsindəki paylaşımında "Şəhidlərimizi ehtiramla yad edirik!" deyə qeyd olunub.

# Peskov: "Qarabağın Azərbaycana mənsubluğu BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri ilə müəyyən edilib"

***Dağlıq Qarabağın Azərbaycana mənsubluğu BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri ilə müəyyən edilib. AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.***



O, müharibədən və Azərbaycan, Ermənistan, Rusiya liderlərinin imzaladığı razılaşmadan sonra Qarabağın statusu barədə məsələyə Rusiyanın münasibətinin dəyişib-dəyişməyəcəyinə dair sualı cavablandıraraq deyib: "Bu ərazilərin mənsubluğu Təhlükəsizlik Şurasının müvafiq qətnamələri ilə kifayət qədər çoxdan müəyyən edilib. Bunların hamısı Təhlükəsizlik Şurasının qətnaməsində göstərilib. Rusiya və əslində heç bir ölkə heç nəyi dəyişməyib. Prezident Putin deyib ki, Qarabağın müstəqilliyi tanınmayıb, o, hətta Ermənistanın özü tərəfindən belə tanınmayıb, bu barədə Prezident Putin deyib".

Kremlin rəsmi nümayəndəsi əlavə edib ki, rusiyalı hərbçilər, həmçinin Qarabağda Rusiyanın humanitar missiyası öz fəaliyyətlərini həm azərbaycanlılar, həm də ermənilər ilə əlaqələndirirlər.

# Əli Əhmədov: “Fransa Milli Assambleyası Senatın səhvini və günahını təkrar edir”

***Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədov Fransa Milli Assambleyasının ötən gün Qarabağla bağlı qəbul etdiyi məlum bədnam qətnamə ilə bağlı fikirlərini özünün rəsmi facebook səhifəsində yaymışdır. SİA mövzunun aktuallığını və Əli Əhmədovun məsələyə diqqətçəkən baxış bucağını nəzərə alaraq, onu oxucularımızın diqqətinə təqdim edir.***



Əli Əhmədov qeyd etmişdir: “Fransa Senatının ardınca bu ölkənin parlamentinin aşağı palatası olan Milli Assambleyanın dekabr ayının 3-də “Erməni xalqının və Avropa və Şərqin xristian icmalarının müdafiəsi” adlı qətnamə qəbul etməsi mübaliğəsiz olaraq siyasi riyakarlığın bariz ifadəsi sayıla bilər. Qətnamənin əsas mövzusu ilə əlaqədar şərhlərdən əvvəl onu vurğulamaq yerinə düşər ki, Fransa hökumətinin məscidlərə və müsəlman icmalarına qarşı total təzyiqlərinin həyata keçirdiyi bir zamanda Milli Assambleyanın Avropada və Şərqdə xristian icmalarının müdafiə edilməsi barədə “həyəcan təbili” çalması heç bir sağlam məntiqə sığmır. Fransanın artıq bir neçə ildir Avropada milli və irqi dözümsüzliyin, islamofobiyanın mərkəzinə çevrilməsi nəinki islam dünyası, eləcə də xristian ölkələrini narahat etməyə başlayıb. Ona görə də bu ölkənin dünyada xristianların müdafiəsi ilə əlaqədar çağırışları qədər əslində antixristian təbliğatı təsəvvür etmək mümkün deyil”.

Baş nazirin müavininin sözlərinə görə, Milli Assambleyanın qəbul etdiyi qətnamə noyabr ayının 25-də Fransa Senatının qəbul etdiyi qətnamənin əsassız, qeyri-obyektiv və ziyanlı iddialarını təkrar edir və yenidən Fransa hökumətinə Dağlıq Qarabağın tanınması kimi təxribatçı təklif ünvanlayıb: “Senatın qəbul etdiyi məsuliyyətsiz və məsuliyyətsiz olduğu qədər də ziyanlı qətnamə ilə əlaqədar Azərbaycan cəmiyyəti, Milli Məclis, hökumət, siyasi partiyalar və qeyri-hökumət təşkilatları əsaslı mövqelərini bildirdiyindən, onları yenidən təkrar etməyə ehtiyac yoxdur. Lakin diqqəti çəkən məqam Senatın məlum tövsiyyəsinə cavab olaraq Dağlıq Qarabağın tanınmasının mümkün olmaması barədə Fransa hökumətinin öz mövqeyini elan etməsindən sonra Milli Assambleyanın yenidən hökumətə bu qondarma, artıq formal şəkildə də mövcud olmayan qurumu tanımağı tövsiyyə etməsidir. Doğrudur, parlament müzakirələrində ölkənin xarici işlər naziri Jan İv Le Duran qondarma Dağlıq Qarabağın tanınmasının mümkün olmadığını bəyan edib. Lakin görünən budur ki, hökumətin “qəti” mövqeyi parlamentariləri inandırmayıb. Lakin bu faktın özünün nə qədər inandırıcı olması sual doğurur. Fransanın Milli Assambleyasının 577 üzvünün yarıdan çoxu, təxminən 60%-i, Prezident Makronun “İrəli, Fransa” partiyasına və onun müttəfiqi “Demokratik hərəkat” partiyasına mənsubdur. Məlum qətnaməyə müxalifət partiyalarla bərabər, hakim partiya və onun müttəfiqləri də səs verib. Qondarma Dağlıq Qarabağın tanınmasına hökumətin razılıq vermədiyi məlum olduğu halda, prezidentin partiyasının nümayəndələrinin yenidən eyni tövsiyyəni irəli sürməsi təəccüblü görünməyə bilməz. Milli Assambleyanın Senatın məsuliyyətsiz və ziyanlı, eynilə də perspektivsiz səhvini və günahını təkrar etməsi nəyin ifadəsidir: Makronun partiyasının ona itaətsizliyinin, erməniləri Makrondan və onun hakimiyyətindən çox sevməsinin, yoxsa anti-Azərbaycan, anti-Türkiyə mövqeyinin ədalət, humanizm, obyektivlik kimi dəyər və prinsiplərdən üstün tutulmasının?”

“Senatın qətnaməsi kimi, Milli Assambleyanın qətnaməsi də hüquqi qüvvəyə malik deyil və qondarma, artıq əslində, mövcud olmayan Dağlıq Qarabağın tanınması baxımından hər hansı perspektivdən məhrumdur. Lakin bu qətnamənin Azərbaycana və qardaş Türkiyəyə dost olmayan münasibətinin ifadəsi kimi diqqətdən kənarda qalması da yolverilməzdir. İndi dostların və dost olmayanların tanınması zamanıdır” - deyə, Əli Əmədov qeyd etmişdir.Ceyhun Rasimoğlu

# Ceyhun Bayramov Belarusun səfiri ilə görüşüb



Cari ilin 4 dekabr tarixində xarici işlər naziri Ceyhun Bayramov Belarus Respublikasının Azərbaycan Respublikasındakı səfiri Gennadi Axramoviçi diplomatik fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etdi.

Xarici İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, nazir Ceyhun Bayramov səfirin ölkəmizdə diplomatik fəaliyyətini yüksək dəyərləndirərək, iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsinə verdiyi töhfəyə görə təşəkkürünü bildirdi və gələcək fəaliyyətində ona uğurlar arzu etdi. İki ölkə xalqlarını bağlayan tarixi və dostluq əlaqələrinə toxunan nazir, Azərbaycan və Belarus arasında strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olmasından məmnunluq ifadə etdi. Nazir Ceyhun Bayramov Azərbaycan torpaqlarının Ermənistan işğalından azad olunması ilə bağlı davam etmiş 44 günlük Vətən Müharibəsi haqqında qarşı tərəfə ətraflı məlumat verdi. Səfir Gennadi Axramoviç iki ölkə arasında bütün sahələr üzrə əlaqələrin inkişafından məmnunluq bildirərək, hətta COVİD-19 pandemiyası dövründə belə iqtisadi əlaqələrdə artımın müşahidə edildiyini vurğuladı. Səfir Azərbaycanı ən xoş arzularla tərk etdiyini bildirdi və ölkəmiz ilə bağlı xoş təəssüratlarının daima xatirində olacağını qeyd etdi. Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi apardılar.

# Azərbaycan Fransaya nota Verdi!

4 dekabr 2020-ci il tarixində Fransa Respublikasının Azərbaycan Respublikasındakı səfiri Zakari Qros Xarici İşlər Nazirliyinə çağırılıb. SİA-nın verdiyi məlumata görə, görüşdə səfirə 3 dekabr tarixində Fransa Milli Assambleyasında qəbul edilmiş “Avropa və Şərqin xristian icmaları və erməni xalqının qorunması” adlı qətnamə ilə əlaqədar



Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin etiraz notası təqdim edilib.

Fransa səfirinin diqqətinə beynəlxalq hüququn norma və prinsipləri, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı, BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874, 884 saylı qətnamələrinə zidd olan həmin sənədlə bağlı qəti etiraz çatdırılıb. Fransa səfiri Azərbaycan XİN-in mövqeyinin Parisin diqqətinə çatdırılacağını bildirib.

# Jan-Lük Reitzer: Milli Assambleyada qətnamənin əleyhinə olan deputatlara söz verilmədi, yalnız yalanlar səsləndirildi

***Fransa Milli Assambleyasında “Avropada və Şərqdə erməni xalqının və xristian icmalarının müdafiəsinə dair qətnamə layihəsi” üzrə debatlarda çıxış üçün yalnız bu sənədin lehinə olan deputatlara söz verildi. Qətnamənin əleyhinə olan deputatlara söz verilmədi. Heç bir dəyəri, heç bir hüquqi əhəmiyyəti olmayan, yalnız rəmzi xarakter daşıyan bu qətnamə layihəsinin əleyhinə səs verdim.***



Bu sözləri Fransa Milli Assambleyasının deputatı Jan-lük Reitzer Assambleyada “Avropada və Şərqdə erməni xalqının və xristian icmalarının müdafiəsinə dair qətnamə layihəsi” adlı sənədin debatları ilə bağlı AZƏRTAC-a müsahibəsində deyib. Deputat bildirib ki, layihə ilə bağlı çıxışçılar siyasi qruplar tərəfindən təyin edilirdi. Mən çıxış üçün vaxt istədim, ancaq mənə söz verilmədi. Parisdən olan deputat Brijit Kulster qətnamənin mətni ilə bağlı izahat verdi, onun çox sayda erməni seçiciləri var.

Mənə isə çıxış üçün söz vermədilər. Çünki, mən həmin sənədin əleyhinə olanlardan idim. Bu, böyük səhvdir. Fransa Minsk qrupunun həmsədridir, o, öhdəsinə götürdüyü vasitəçi roluna uyğun olaraq bitərəf olmalı idi, ancaq aydın şəkildə Ermənistana tərəfkeşlik etdi. İndi Fransanın hansısa rol oynayacağını görmürəm.

Qeyd edib ki, xarici işlər naziri Jan-İv lö Dryan fikrini çox aydın ifadə etdi. O, açıq şəkildə mövqeyini bildirdi. Düzdür, o, “ermənilərin faciəsini bölüşürəm” dedi, ancaq deputatlara müqayisədə daha balanslı danışdı, Fransanın bitərəf qalmaq istəyini qeyd etdi. “Deputatlar təzyiq altındadırlar, onlar düz danışmadılar. Xarici işlər komissiyasının iclasında onlara Bakıda erməni kilsəsi olmasından, onun dövlət hesabına bərpa edilməsindən, oradakı kitabların qorunub saxlanmasından danışdım. Ancaq həqiqəti eşitməzliyə vurdular”, - deyə Jan-lük Reitzer diqqətə çatdırıb.

Vurğulayıb ki, qətnamə layihəsi ilə bağlı debatlarda diqqət çəkən əsas məqam Türkiyə idi. Debatlarda çıxış edənlər yalnız Türkiyənin adını çəkirdilər, hamı Türkiyədən danışırdı. Mən həmkarlarımla danışanda dəfələrlə qeyd etmişəm ki, Azərbaycan dünyəvi ölkədir, bu ölkədə dini münaqişə yoxdur. Bütün dinlərə hörmətlə yanaşılır. Həmkarlarıma deyirəm, mənimlə Azərbaycana gəlin və reallığı öz gözlərinizlə görün, söylənilənlərə inanmayın. İllərdir reallığın saxtalaşdırılması son günlərin faciəvi nəticələrinə səbəb olub.

# Milli və beynəlxalq səviyyədə məsuliyyət nümayiş etdirən Azərbaycan

*"Azərbaycan virusun yayılmasının qarşısını almaq məqsədilə vaxtında zəruri tədbirlər həyata keçirmişdir. COVID-19 ilə bağlı yaranmış vəziyyətə müvafiq olaraq tərəfimizdən adekvat addımlar atılmışdır". Bu sözləri Prezident İlham Əliyev BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasında çıxışı zamanı deyib.*



"Bu gün ölkə üzrə koronaviruslu xəstələr 46 dövlət xəstəxanasında müalicə olunur. Pandemiya başladığı zaman bizim 6 funksional laboratoriyamız var idi. Hazırda fəaliyyətdə olan laboratoriyalarımızın sayı 40-dan artıqdır", - deyə dövlətimizin başçısı qeyd edib.

Prezident bildirib ki, pandemiyanın mənfi təsirinin qarşısının alınması məqsədilə hökumət tərəfindən 2.5 milyard ABŞ dolları həcmində iqtisadi-sosial yardım və maliyyə dəstəyi paketi təqdim edilmişdir. Sosial yardım tədbirləri 5 milyon insanı əhatə edir ki, bu da ölkə əhalisinin yarısı deməkdir. Koronavirusla mübarizə heç bir xarici maliyyə dəstəyi olmadan, yalnız daxili mənbələr hesabına maliyyələşdirilmişdir.

## "COVID-19 ilə mübarizədə beynəlxalq ictimaiyyətin birgə səylərinə çox böyük ehtiyac var"

"Bu gün dünya üçün ən böyük təhlükə olan COVID-19 pandemiyası ilə mübarizədə beynəlxalq ictimaiyyətin birgə səylərinə çox böyük ehtiyac var". Bunu Prezident İlham Əliyev BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasında çıxışı zamanı bildirib.

Dövlətimizin başçısı deyib ki, milli və beynəlxalq səviyyədə məsuliyyət nümayiş etdirən Azərbaycan Qoşulmama Hərəkatının Sədri qismində 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun koronavirusla mübarizəyə həsr edilmiş Zirvə görüşünün keçirilməsinin təşəbbüskarı olmuşdur: "Mən Zirvə görüşü çərçivəsində BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsini təklif etmişdim. Qoşulmama Hərəkatının bütün 120 üzvü həmin təklifi dəstəkləmişdir. Bu, onların "Bandunq Prinsipləri", Hərəkatın dəyərləri, multilateralizm və beynəlxalq həmrəyliyə sadiqliyini bir daha vurğulamış oldu. Ümumilikdə, BMT-nin 150-dən artıq üzv dövləti həmin təşəbbüsü dəstəkləmişdir".

## "Ermənistanın bu təşəbbüsə etiraz etməsinin yeganə səbəbi onun Azərbaycan tərəfindən irəli sürülməsi olmuşdur"

Prezident İlham Əliyev BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyasında çıxışında deyib ki, Ermənistan son dəqiqəyə qədər xüsusi sessiyanın keçirilməsi üçün hazırlıq prosesinə mane olmağa çalışmışdır: "Təqribən bir aydır ki, atəşkəsə əməl olunur. Atəşkəsə Nəzarət üzrə Birgə Monitorinq Mərkəzi vasitəsilə Türkiyə və Rusiya atəşkəsin təmin edilməsi işində vacib rol oynayır. Beləliklə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hərbi-siyasi yollarla həll edilmişdir. Beynəlxalq hüquqa məhəl qoyulmadığı üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin güc yolu ilə icrası qaçılmaz idi. Nəticədə təcavüzkar dövlət sülhə məcbur edilmişdir. Bu, Ermənistanın destruktiv yanaşmasının yeganə nümunəsi olmamışdır. Ermənistan BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyanın keçirilməsi təşəbbüsünün əleyhinə çıxış etmişdir. Ermənistan son dəqiqəyə qədər xüsusi sessiyanın keçirilməsi üçün hazırlıq prosesinə mane olmağa çalışmışdır. Ermənistanın bu təşəbbüsə etiraz etməsinin yeganə səbəbi onun Azərbaycan tərəfindən irəli sürülməsi olmuşdur".

"Hazırda dünya pandemiyanın növbəti dalğası ilə üzləşib",-deyən Prezident İlham Əliyev vurğulayıb ki, pandemiya başlayandan bəri Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx təmasdadır: "Biz pandemiyanın ilk vaxtlarında dəyərli tövsiyələrinə və öz mütəxəssislərini ölkəmizə ezam etdiyinə görə təşkilata minnətdarıq. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizədə nümunəvi ölkə adlandırmışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatına toplam 10 milyon ABŞ dolları həcmində iki dəfə könüllü maliyyə töhfəsi etmişik. Bununla yanaşı, bu günədək Azərbaycan 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərmişdir".

## "Noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanması nəticəsində Azərbaycanın işğal altında olan digər əraziləri də azad edilmişdir"

Prezident İlham Əliyev sessiyada çıxışı zamanı bildirib ki, Azərbaycan pandemiya dövründə qlobal atəşkəslə bağlı BMT Baş katibinin təşəbbüsünü dəstəkləmişdir: "Lakin həmin çağırış 30 ildən artıq Azərbaycan torpaqlarını işğal altında saxlayan və BMT Təhlükəsizlik Şurasının işğal olunmuş bütün ərazilərimizdən qoşunlarının çıxarılmasını tələb edən qətnamələrinə məhəl qoymayan Ermənistan tərəfindən eşidilməmişdir. Son iki il ərzində Ermənistan danışıqlar prosesini məqsədyönlü şəkildə məhv etmişdir. Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" kimi bir sıra təxribatçı bəyanatları ilə danışıqlara son qoymuşdur. Ermənistanın müdafiə naziri "yeni ərazilər uğrunda yeni müharibə"yə çağırış etmişdir".

Azərbaycan Prezidenti bildirib ki, cari ilin iyul ayında Ermənistan regionda yeni gərginlik mənbəyi yaratmaq, yeni əraziləri işğal etmək və Azərbaycanın strateji enerji infrastruktur layihələrinə zərbə vurmaq məqsədilə dövlət sərhədində hərbi təxribat törətmişdir: "Daha sonra, avqust ayında Ermənistanın diversiya qrupu təmas xəttini keçməyə cəhd etmişdir".

## "Mən Ermənistanın yeni müharibəyə hazırlaşması ilə bağlı xəbərdarlıq etmişdim"

"Sentyabrın 24-də BMT Baş Assambleyasının ümumi müzakirələri çərçivəsində çıxışım zamanı mən Ermənistanın yeni müharibəyə hazırlaşması ilə bağlı xəbərdarlıq etmişdim",- deyən Prezident İlham Əliyev bildirib ki, sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı irimiqyaslı hərbi təxribata başlamışdır: "Azərbaycanın döyüş bölgəsinə yaxın ərazilərdə yerləşən Tərtər və digər şəhərləri 44 gün ərzində Ermənistan silahlı qüvvələri tərəfindən ağır artilleriya atəşinə məruz qalmışdır. Ermənistan döyüş bölgəsindən uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir, Qəbələ, Siyəzən və digər şəhərlərə qarşı ballistik raketlərdən istifadə etmişdir. Ermənistan azərbaycanlı mülki əhali arasında böyük sayda insan itkisinə səbəb olmaq və onları didərgin salmaq məqsədilə ağır artilleriya, ballistik raketlər, ağ fosfor və kasetli sursatlardan istifadə etmişdir. Nəticədə 11 nəfəri uşaq olmaqla, 94 mülki şəxs qətlə yetirilmiş, 400-dən artıq insan yaralanmışdır".

Azərbaycan Ordusu bunun layiqli cavabını vermiş, ölkə vətəndaşlarını və ərazisini müdafiə edərək uğurlu əks-hücum əməliyyatı başlamış və işğal olunmuş ərazilərin böyük bir hissəsini azad etdiyini deyən dövlət başçısı bildirib ki, hərbi əməliyyatlar zamanı qazanılmış Qələbə işğalçını təslim olmağa məcbur etmişdir: "Azərbaycan və Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanması nəticəsində Azərbaycanın işğal altında olan digər əraziləri də azad edilmişdir. O vaxtdan etibarən, təqribən bir aydır ki, atəşkəsə əməl olunur. Atəşkəsə Nəzarət üzrə Birgə Monitorinq Mərkəzi vasitəsilə Türkiyə və Rusiya atəşkəsin təmin edilməsi işində vacib rol oynayır. Beləliklə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hərbi-siyasi yollarla həll edilmişdir. Beynəlxalq hüquqa məhəl qoyulmadığı üçün BMT Təhlükəsizlik Şurasının qətnamələrinin güc yolu ilə icrası qaçılmaz idi. Nəticədə təcavüzkar dövlət sülhə məcbur edilmişdir".

## "Bu, Ermənistanın destruktiv yanaşmasının yeganə nümunəsi olmamışdır"

Prezident İlham Əliyev Ermənistan BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyanın keçirilməsi təşəbbüsünün əleyhinə çıxış etdiyini deyərək bildirib ki, Ermənistan son dəqiqəyə qədər xüsusi sessiyanın keçirilməsi üçün hazırlıq prosesinə mane olmağa çalışmışdır: "Ermənistanın bu təşəbbüsə etiraz etməsinin yeganə səbəbi onun Azərbaycan tərəfindən irəli sürülməsi olmuşdur. İnanıram ki, xüsusi sessiya pandemiya ilə qlobal mübarizəyə öz töhfəsini verəcək və bizi ümumi hədəflər ətrafında daha da sıx birləşdirəcəkdir".

Bəli, bu gün Azərbaycan Preizdenti İlham Əliyev həm siyasi meydanda, həm döyüş meydanında, həm yüksək tribunalarda qalib dövlətin müzəffər Ali Baş Komandanı kimi çıxış edir. Budur Bizim Prezidentimizin Qüdrəti, siyasəti, Lider ölkənin Lider Prezidenti olmaq! Qarabağ Azərbaycandır!

**R.HÜSEYNOVA**

# Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub










***Canlarını Azərbaycanın ərazi bütövlüyü yolunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi dekabrın 4-də saat 12:00-da bir dəqiqəlik sükutla yad olunub. AZƏRTAC xəbər verir ki, insanlar şəhidlərimizin ruhu qarşısında baş əyib, onların xatirəsinə hörmət və ehtiramlarını bir dəqiqəlik sükutla ifadə ediblər. Dövlət bayraqları endirilib, nəqliyyatın hərəkəti dayanıb, avtomobillərdən, gəmilərdən səs siqnalları verilib. Anım gününün ikonası Şuşanın rəmzi sayılan "Xarı Bülbül"dür.***

Qeyd edək ki, sükut dəqiqəsi Prezident İlham Əliyevin Vətən müharibəsi şəhidlərinin xatirəsinin yad edilməsi haqqında Sərəncamı ilə elan olunub. Azərbaycanın bütün şəhər və rayonlarındakı məscidlərdə, kilsə və sinaqoqlarda Vətən müharibəsi şəhidlərinin anma mərasimləri keçirilib.

Xatırladaq ki, Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2783 hərbi qulluqçusu həlak olub. Hərbi əməliyyatlar zamanı yaralanmış 1245 əsgər və zabitin tibb müəssisələrində müalicəsi davam etdirilir. Allah şəhidlərimizə rəhmət eləsin, bütün yaralılara şəfa versin.

# Heydər məscidində Vətən müharibəsi şəhidlərinin xatirəsinə vəhdət namazı qılınıb

***Dekabrın 4-də Heydər məscidində Vətən müharibəsi şəhidlərinin xatirəsi yad edilib, vəhdət namazı qılınıb. AZƏRTAC xəbər verir ki, anım mərasimində Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə iştirak edib.***

QMİ sədri deyib ki, Azərbaycan xalqına bu Qələbəni bəxş edən Müzəffər Ali Baş Komandanımız, Ordumuz, şəhidlərimizdir. 44 günlük Vətən müharibəsində başda Ali Baş Komandan İlham Əliyev olmaqla, Azərbaycan Ordusu zəfər çalaraq tarixdə yeni səhifə açdı. Xalqımız xoşbəxt xalqlardan biridir. Bu Qələbənin memarı isə ulu öndər Heydər Əliyevdir. 1993-cü ildə xalqımız Ümummilli Liderə müraciət edərək onu Azərbaycana dəvət etdi. Ulu Öndər müstəqil Azərbaycanı yenidən qurdu.

A.Paşazadə deyib ki, Vətən yolunda şəhid olanlar Allah yanında ən yüksək məqamdadırlar. Həm Birinci Vətən müharibəsi, həm də İkinci Vətən müharibəsi dövründə şəhidlərimiz oldu, Allah onlara rəhmət eləsin! Sünni və şiə məzhəbində olanlar bu gün şəhidlərimizin ruhuna birlikdə dualar etdilər.





Şeyxülislam xatırladıb ki, ulu öndər Heydər Əliyev Kəbədə olarkən torpaqlarımızın işğaldan azad edilməsi üçün dualar edib. Sonrakı dövrlərdə Kəbədə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da Qarabağın azad olunması, şəhidlərimiz, Azərbaycan üçün dualar ediblər. Bu gün xalqımız İlham Əliyev kimi Prezidenti olduğuna görə Allaha şükür edir. Dövlətimizin başçısı tarixdə daim böyük fateh kimi qalacaq. Bu gün Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyada özünü qalib xalq hesab edir və bundan qürur duyur. Biz qalibik. Bu qalibiyyəti bizə Müzəffər Ali Baş Komandanımız, rəşadətli Ordumuz bəxş edib. Buna görə Ali Baş Komandana, Ordumuza təşəkkür edirik, şəhidlərimizə Allahdan rəhmət diləyirik.

Şeyxülislam vurğulayıb ki, Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin böyük vəsiyyətini yerinə yetirdi, torpaqlarımız işğaldan azad olundu. Bu gün xalqımız Prezidentimizin ətrafında sıx birləşib.

QMİ sədrinin birinci müavini, müfti Salman Musayev qeyd edib ki, əldə etdiyimiz tarixi Zəfər Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqımızın şücaətli oğullarının sayəsində mümkün oldu. Torpaqlarımız şəhid qanı bahasına azad olundu. Şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirik. Mənfur düşmən Qarabağdakı məscidlərimizin, ziyarətgahlarımızın və türbələrimizin demək olar ki, hamısını məhv edib. Prezident İlham Əliyevin də dediyi kimi, o məscidlər, ziyarətgahlar, türbələr bərpa ediləcək. Allahdan arzumuz odur ki, qalibiyyətimiz daimi olsun, dövlətimiz daim inkişaf etsin. Bütün dünyada bizim qalibiyyətimiz öyrənilir. Allah bizə hər zaman böyük müjdələr qismət etsin!".

# Eldar İbrahimov: “Bundan sonra işğaldan azad olunmuş ərazilərimizdə quruculuq dövrü başlayır”



“Dekabrın 1-də Laçın rayonunun işğalına son qoyuldu. 28 ildən sonra Laçın rayonu bir güllə atılmadan və bir şəhid verilmədən erməni işğalından azad olundu. Müzəffər Ali Baş Komandanımız növbəti Zəfər tarixi yazdı, Laçını laçınlılara, əzəli-əbədi sahiblərinə, bütün Azərbaycan xalqına qovuşdurdu. Beləliklə, müharibə tam mənada başa çatdı, 10 noyabr Bəyanatının şərtlərinə uyğun olaraq, torpaqlarımızın işğalına bütövlükdə son qoyuldu, həmçinin BMT Təhlükəsizlik Şurasının 27 il öncə qəbul etdiyi, ancaq icra etmədiyi 4 qətnaməsini özümüz icra etdik”. Bu fikirləri açıqlamasında Milli Məclisin İntizam komissiyasının sədri, Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin üzvü Eldar İbrahimov deyib.

Eldar İbrahimov bildirib ki, işğal altında olan ərazilərimizin böyük bir hissəsini döyüşlə, qalan hissəsini isə 10 noyabr razılaşmasına əsasən geri aldıq. O təəssüflə qeyd edib ki, 28 il öncə Azərbaycan üçün çox strateji əhəmiyyətə malik olan Laçın rayonunu itirmişdik: “Laçın erməni təcavüzünün, onun arxasında dayanan çirkin dairələrin fitnə-fəsadlarının, eləcə də Azərbaycandakı hərc-mərcliyin, hakimiyyət davasının qurbanı oldu. O vaxtkı hadisələr bugünkü kimi gözümün qarşısındadır. Laçın işğal olunan günü Bakıda hakimiyyət mübarizəsi gedirdi. 18 may tarixində Ali Sovetin sessiyası keçirildi və İsa Qəmbər parlamentin sədri seçildi. Əgər həmin dövrdə Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəlsəydi torpaqlarımız işğal olunmazdı. Amma çox təəssüflər olsun ki, bizlər bu ağır təcrübəni yaşadıq. Bununla belə, şükürlər olsun ki, artıq həmin günlər geridə qaldı. Biz artıq torpaqlarımızın işğalına son qoymuşuq, məğlub edilmiş xalqdan qalib xalqa çevrilmişik, Zəfər çalmışıq, Qələbə qazanmışıq. Bu, çox böyük tarixi Zəfər, möhtəşəm Qələbədir. Bu, dünya hərb elminə düşəcək, qızıl hərflərlə həkk olunacaq bir qalibiyyətdir. Bunu hələ çoxları öyrənəcək, bundan hələ çoxları istifadə etməyə çalışacaq. Qələbəni bizə yaşadanlara - Müzəffər Ali Baş Komandana və rəşadətli Ordumuza minnətdarıq, onlara borcluyuq, qanları torpaqlarımıza qarışmış şəhidlərimizə vəfa borcumuz var”.

YAP İdarə Heyətinin üzvü söyləyib ki, işğaldan azad olunmuş ərazilərimizdə müqəddəs üçrəngli bayrağımız ucaldılıb: “Biz qalib ölkəyik, artıq kimsə bizimlə zor, təhdid, güc dilində danışa bilməz, şərtləri diktə edən bizlərik. Düşmənin və havadarlarının dərsini verdik. Öz bayrağımızı Şuşada və bütün başqa şəhər və rayonlarımızda ucaltdıq. Hər kəs gücümüzü, qüdrətimizi, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, başını əzdi. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Ali Baş Komandanın Laçının işğaldan azad olunması ilə bağlı Azərbaycan xalqına müraciətində deyildiyi kimi, bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bunun üçün də bütün göstərişlər verilib. İradəmiz də var, təcrübəmiz də var. “İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!”, - deyərək Ali Baş Komandan, həmçinin bildirdi ki, ölkəmiz üçün yeni dövr başlayır. Bu, quruculuq, inkişaf, azad edilmiş ərazilərimizin bərpası dövrüdür. Hamımız əminik ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan dövləti və xalqı həmrəylik şəraitində dağıdılmış şəhərləri, kəndləri bərpa etmək üçün bütün imkanlarını səfərbər edəcək. Biz bundan sonra da böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir. Biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaq”.

# Azərbaycanda 4 267 nəfər COVID-19-a yoluxdu, 41 nəfər vəfat etdi




Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 4 267 yeni yoluxma faktı qeydə alınıb, 2 566 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 41 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 138 000 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 83 800 nəfər müalicə olunaraq sağalıb, 1 551 nəfər vəfat edib, aktiv xəstə sayı 52 649 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 15 808, ötən müddət ərzində isə ümumilikdə 1 797 026 test aparılıb.

# Ermənistanın itkiləri - DƏHŞƏTLİ STATİSTİKA!

Ermənistanın Qarabağ müharibəsində verdiyi itkilərlə bağlı yeni dəhşətli statistika yayılıb. SİA xəbər verir ki, siyahıya görə, Ermənistan ordusunun 8472 əsgəri məhv edilib. Eyni zamanda erməni silahlılarının 13 min hərbçisi yaralanıb. 502 əsiri olan düşmənin 3 min əsgəri də itkin düşüb. Bəzi məlumatlara görə, Ermənistanın məhv edilən əsgərlərinin sayı 15000-dən çoxdur. Düşmənin məhv edilmiş və sıradan çıxarılmış texnikalarına gəldikdə, bunun dəyəri milyardlarla dollarlarla ölçülür və sayları hər kəsə bəllidir.



# Ərdoğan Marselin ermənilərə verilməsi təklifini dəstəklədi



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Fransa Milli assambleyasının Dağlıq Qarabağla bağlı qəbul etdiyi qərəzli qətnaməni sərt şəkildə tənqid edib. SİA Anadolu Ajans-a istinadən xəbər verir ki, Türkiyə liderinin sözlərinə görə, Fransa Dağlıq Qarabağ məsələsindəki ortaqlıq mövqeyini bütünlüklə itirib.

Cənab Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevin ikinci erməni dövlətinin yaradılması üçün Fransanın Marsel şəhərinin ermənilərə təhvil verilməsi təklifinə də dəstəyini ifadə edib. Xatırladaq ki, qardaş Türkiyənin dövlət başçısı xanımı ilə birlikdə Bakıda qələbə münasibəti ilə keçiriləcək Hərbi Paradda iştirak edəcək.

*Rövşən RƏSULOV*

# Azərbaycan Ordusunda Vətən müharibəsi şəhidlərinin xatirəsi anılıb



Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən saat 12:00-da Əlahiddə Ümumqoşun Ordusu, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində canlarını Azərbaycan Respublikasının ərazi bütövlüyü yolunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etmək məqsədilə bir dəqiqəlik sükut elan edilib.

# Hikmət Babaoğlu: “Prezident BMT-də qalib dövlətin müzəffər Ali Baş Komandanı kimi çıxış etdi”



“Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolu daima artmaqdadır. Bu hər şeydən öncə Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi strateji xarici siyasət kursu və milli maraqlarla öz tərəfdaşlarının maraqlarını uzlaşdırma bacarığı ilə əlaqədardır. Azərbaycanın fəal və təşəbbüskar xarici siyasəti onun beynəlxalq münasibətlərdə nüfuzunu müəyyən etməklə yanaşı həm də iştirakçılığını təmin edir. Nəticədə hazırda Azərbaycan bir sıra beynəlxalq və regional təşkilatlara sədrlik edir. Bunların sırasında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və Qoşulmama hərəkatı da var. Biz hər iki təşkilatın 44 günlük ikinci Qarabağ savaşında Azərbaycanı dəstəklədiyinin şahidi olduq. Hətta Qoşulmama Hərəkatına üzv olan bəzi ölkələrin dəstəyi BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin bizim lehimizə olmayan qərar qəbul etməsinin belə qarşısını aldı”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, Türk Şurasının göstərdiyi dəstək isə müyyən mənada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Ermənistana mümkün dəstək verə bilmə ehtimalını əngəllədi: “Çünki Türk Şurasına üzv olan iki ölkə həm də KTMT-nin üzvləridir. Hazırda isə dünyada paralel müharibə yaxud səssiz müharibə də getməkdədir. Bu Covid-19 pandemiyasına qarşı mübarizədir. Azərbaycan Qoşulamama Hərəkatının sədri kimi ümümbəşəri təhdid yaradan bu pandemiyaya qarş mübarizədə səfərbərliyi təmin etmək üçün ilk təşəbbüslə çıxış edərək məsələni BMT-nin gündəminə gətirdi və bu təşəbbüs yüksək qiymətləndirildi. Məğlub edilmiş Ermənistandan başqa BMT-yə üzv olan dövlətlərin əksəriyyəti bu təşəbbüsü dəstəklədilər və dünayının ən böyük beynəlxalq təşkilatında bununla bağlı xüsusi sessiya çağırıldı. Dekabrın 3 və 4-də isə BMT Baş Assambleyasının Prezidenti Volkan Bozkırın sədrliyi ilə növbəti tədbir baş tutdu və Assambleyanın 31-ci xüsusi sessiyasında dünya liderləri, BMT rəsmiləri və ekspertlər Covid-19 panemiyasının əsas aspektlərini, peyvəndlərin paylanması və sosial-iqtisadi məsələləri müzakirə ediblər. Bu əvvəlki sessiyada müzakirə olunan koronavirusa qarşı mübarizə və hazırlanacaq peyvəndlərin hamı üçün əlçatanlığının təmin oluması məsələsindən sonra indiki real vəziyyətin müzakirə olunmasıdır. Bu Azərbaycan Prezidentinin təşəbbüs və təkliflərinin BMT tərəfindən dəstəklənməsi və onun nüfuzunun qəbul edilməsi deməkdir”.

H.Babaoğlu vurğulayıb ki, artıq sessiyanın gündəmi və çıxışların ardıcıllığı da müəyyənləşdirilib: “Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri qismində xüsusi sessiyanın açılış mərasimində ali heyətin tərkibində-1-ci sıra 5-ci yerdə çıxış edib və 120 ölkənin pandemiya ilə bağlı əsas baxışlarını dünya ictimaiyyətinə çatdırıb. Bu özü bir göstəricidir və Azərbaycan Prezidentinə olan münasibətdir. Bundan başqa 155 iştirakçı ölkə arasında Prezident İlham Əliyevin dövlət başçısı kimi 7-ci sırada çıxış etməsi heç şübhəsiz ki, Azərbaycana dünyada olan böyük hörmət və etimadın nümunəsidir. Eyni zamanda, bu, Prezident İlham Əliyevin şəxsi nüfuzunun beynəlxalq aləmdə göstəricisidir. Bütün bunlarla yanaşı istənilən beynəlxalq tribunadan Azərbaycan Prezidentinin ölkəmizin maraqlarını və artıq məğlub edilmiş işğalçı Ermənistanda hökm sürən despotizmi, diktaturanı, faşizmi dilə gətirməsi və onu ifşa etməsi də artıq ənənə halını alıb ki, bu da həqiqətlərin dünyaya çatdırılmasında özünəməxsus rol oyanyır. Ən mühüm məsələlərdən bir də odur ki , dekabr ayının 3-ü və 4-də keçirilən sessiyada Azərbaycan Prezidenti qalib dövlətin müzəffər Ali Baş Komandanı kimi çıxış edib. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməni icra etmiş dövlət və beynəlxalq hüquqda presedent yaratmış Lider kimi öz sözlərini deyib. Bu isə yeni dünya nizamında Azərbaycanın yerini və rolunu təyin edən ən əsas faktorlardan birdir”.

# Publisistik düşüncələr: Gü

## Qüdrətli sərkərdə və müdrik Prezident İlham Əliyev l



***İlıq bir payız gecəsi başlayan Vətən müharibəmiz 44 gün çəkdi. Fikir verdinizsə, sanki təbiət də bizə tərəf idi - öz günəşi və isti nəfəsi ilə. Şəxsən mən havanın bu qədər uzun müddət sabit, küləksiz və yağmursuz keçdiyi başqa bir payız xatırlamıram. Əks-təqdirdə dağlarda döyüş çox çətin olardı.***

Bizi Qarabağımıza qovuşduran günəşli payız günlərinin hər birində, hər anında kitablara sığmayan qəhrəmanlıq dastanı yazılırdı. Bu dastanı Müzəffər Ali Baş Komandan İlham Əliyev, düşmənin başına gecə-gündüz od ələyən Azərbaycan Əsgəri, yumruq kimi birləşərək bir ürək kimi vuran Azərbaycan Xalqı yazırdı.

Bu 44 gün Qarabağın 30 illik qara taleyini dəyişdi, bir milyon insanın məcburi köçkün adını silib atdı. Bizi qalib xalqa çevirdi, bölgədə yeni reallıq yaratdı...

### Allah dərgahında qəbul olunan dualar

Ağdam, 23 noyabr. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam məscidinin divarını öpür, ayaqqabılarını çıxarıb içəri girirlər. Bu duyğusal mənzərəni əks etdirən videogörüntülərə təkrar-təkrar baxıram. Əziz oxucular, siz də baxın (video.azertag.az/site/video/107767). Məscidin hələ toz-torpaqdan təmizlənməmiş döşəməsində ayaq izləri qalır. Mehriban xanım əlində tutduğu "Qurani-Kərim"i öpərək Prezidentə verir. İlham Əliyev də Quranı öpüb stolun üstünə qoyur. Hər ikisi üzünü Allah dərgahına tutaraq dualar edir.

Sonradan məlum olacaq ki, Prezident həmin "Qurani-Kərim"i Məkkədən gətirib və onu Ağdam məscidinə bağışlayıb. Öz dilindən eşitdik ki, dörd dəfə Məkkə ziyarətində olub - bir dəfə rəhmətlik atası Ulu Öndərimizlə, üç dəfə isə Prezident kimi: "Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq. Bu gün burada, vandallar tərəfindən dağıdılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb".

Prezidentimizin Ağdam məscidi önündəki bu tarixi çıxışını dinləyərkən Mehriban xanımın Vətən müharibəsinin ilk günlərində etdiyi duaları xatırlayıram: "Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun! Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!".

Vaxtilə ulu öndərimiz Heydər Əliyevin Məkkəni ziyarət etməsi yadıma düşür. Jurnalistlər ondan nəyə dua etdiyini soruşanda demişdi: Qarabağ üçün, Azərbaycan və xalqımız üçün dualar etdim.

Ötən 30 ildə bütün xalqımızın, dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir soydaşımızın dilində də eyni dualar səslənib. Şükürlər olsun, Qadir Allah bu duaları eşitdi. Göydə Uca Yaradanın köməyi, yerdə Prezidentimizin yenilməz iradəsi və rəşadətli Ordumuzun şücaəti sayəsində yağı düşməni diz çökdürdük. Müqəddəs Qarabağ torpağını öpmək bizə nəsib oldu...

### Ata vəsiyyətini yerinə yetirən qüdrətli sərkərdə

Noyabrın 8-də Şuşa işğaldan azad olunan gün Müzəffər Ali Baş Komandan İlham Əliyev Fəxri xiyabana gedərək ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdi, Ümummilli Liderin ruhu qarşısında baş əydi. Həmin gün Şəhidlər xiyabanından xalqa etdiyi müraciətində qəlbləri riqqətə gətirən bu sözləri dedi: "...Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

Bu tarixi müraciəti dinləyərkən Ulu Öndərimizin Qarabağ münaqişəsini həll etmək üçün göstərdiyi aramsız səyləri, keçirdiyi gərgin günləri, əsəb sarsıntılarını xatırladım. Mən Heydər Əliyevin dövlətçilik fəaliyyətinin demək olar, bütün məqamlarını, eləcə də xarici səfərlərini, dövlət və hökumət başçıları ilə görüşlərini, münaqişənin həlli ilə bağlı apardığı çoxsaylı danışıqları işıqlandıran jurnalistlərdən biri kimi bütün bunların şəxsən şahidiyəm. İlk vaxtlar xaricə səfər edəndə özü ilə xəritə götürür, böyük auditoriyalarda görüşləri zamanı Qarabağın kimə məxsus olduğunu xəritə üzərində səbirlə izah edirdi. O vaxtlar dünyada bir çoxlarında, hətta siyasətçilərdə erməni lobbisinin təsiri altında yanlış təsəvvürlər formalaşmışdı və Ulu Öndər Qarabağ haqqında əsl həqiqəti çatdırmaq üçün hər bir mümkün vasitəyə əl atmalı olurdu. Həyatının sonlarına yaxın yaşına, səhhətindəki problemlərə baxmayaraq, bir təyyarədən düşüb digərinə minir, okeanlar aşırdı. Yadımdadır, 2001-ci il martın 5-də Fransaya səfər etdi. Bundan heç bir ay keçməmiş (aprelin 3-də) uzaq Amerikaya getdi. Parisdə, Ki-Uestdə günlərlə sürən çətin danışıqlar apardı. Hər dəfə münaqişənin həlli məsələsi yaxınlaşanda sanki hansısa gözəgörünməz qüvvə sülh prosesini pozurdu.

Sülh, ya hərb? Bu sual Heydər Əliyevin də gündəmində idi. Arxivimi araşdıranda illər öncə böyük uzaqgörənliklə dediyi, bu günümüzlə səsləşən çıxışının lent yazısına rast gəldim. Həmin çıxışdan kiçik bir hissəni olduğu kimi təqdim edirəm: "... Həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".

Ulu Öndərimiz bu qəti inamını dilə gətirəndə Azərbaycan ayaq üstə yenicə dayanmağa başlamışdı. O vaxt işğalçı qoşunları torpaqlarımızdan güc yolu ilə çıxara biləcək ordumuz, yetərincə silahımız yox idi. Heydər Əliyevin dediyi zaman təxminən 20 il sonra yetişdi. Oğul İlham Əliyev 17 illik prezidentliyi dövründə qüdrətli bir Azərbaycan, güclü bir ordu qurdu. Elə bir ordu ki, bu gün dünyanın 50 ən güclü ordusu sırasında yer alır. Elə bir ordu ki, arsenalında çoxlarının həsəd apardığı ən müasir silahlar var. Məhz bu ordu nəyi nə vaxt etmək lazım gəldiyini bilən Ali Baş Komandanın əmrini yerinə yetirərək mənfur düşməni iti qovan kimi qovub torpaqlarımızdan çıxardı. Azərbaycan əsgəri öz qanı, canı bahasına 30 illik işğala son qoydu.

Nəyin bahasına olursa-olsun

# nəşli payızın qırx dörd anı

## bizi qalib xalqa çevirdi, bölgədə yeni reallıqlar yaratdı

Son 17 ilin tarixini vərəqləyən hər kəs görə bilər ki, İlham Əliyev müharibə istəmirdi. İstəyirdi ki, torpaqlarımız qan tökülmədən, şəhid verilmədən azad olunsun. Ona görə də danışıqlara ümidlə gedir, ATƏT-in Minsk qrupunun nə vaxtsa əməli addımlar atacağını gözləyirdi. Səbirlə davranır, amma, eyni zamanda, öz şərtlərini irəli sürür, xəbərdarlıq edirdi: Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına əsla yol verməyəcək, işğal altındakı torpaqlarımız nəyin bahasına olursa-olsun azad ediləcək. Bu, o demək idi ki, Ermənistan Qarabağdan xoşluqla çıxmasa, hərbi yoldan başqa variant qalmayacaq.

Minsk qrupunun həmsədr ölkələri, eləcə də bütün beynəlxalq təşkilatlar, böyük dövlətlərin liderləri isə dönə-dönə eyni sözü təkrarlayırdılar: münaqişə yalnız sülh yolu ilə həll oluna bilər, onun hərbi həlli yoxdur. Prezidentimiz nə deyirdi? Gəlin yadımıza salaq: Lazım olsa, torpaqlarımızı hərbi yolla azad edəcəyik, müharibə heç zaman istisna olunmur. Prezident İlham Əliyev çıxışlarının birində bu barədə belə dedi: “Danışıqlar dövründə müxtəlif mərhələlərdə dəfələrlə təklif irəli sürülürdü ki, Azərbaycan tərəfi müharibə yolundan imtina etsin. Mən heç vaxt buna razılıq vermirdim. Ondan sonra məni ittiham etməyə başlayırdılar ki, İlham Əliyev müharibəyə başlamaq istəyir. Mən deyirdim ki, məsələni sülh yolu ilə həll etmək istəyirəm. Amma həll etmək istəyirəm. Ermənistan nə istəyirdi? Status-kvonu saxlamaq, əbədi etmək. Hesab edirdi ki, əgər 26-27 il ərzində buna nail olubsa, deməli, bundan sonra da nail olacaq”.

Səbrin də bir sonu olur. Ermənistanın baş naziri Paşinyanın əndazəni aşan hərəkətləri, sərsəm bəyanatları sülh prosesinin üstündən xətt çəkdi, xalqımızın, Prezidentimizin səbir kasasını daşdıran son damla oldu. Paşinyan deyirdi ki, “Qarabağ Ermənistandır. Nöqtə”. Deyirdi, Cəbrayıla yol çəkdirəcək. İnauqurasiyasını Şuşada keçirdi, içib keflənərək Cıdır düzündə rəqs elədi. Parlamenti Şuşaya köçürmək, “yeni ərazilər üçün yeni müharibə” planlarından danışdı. Bizi hədələdi ki, müharibə başlasa, Bakıyadək gəlib çıxacaq. Ardınca Tovuz sərhədində hərbçilərimizə xaincəsinə hücum təşkil olundu, Azərbaycana təxribat qrupu göndərildi. Nəhayət sentyabrın 27-sinə keçən gecə Qarabağda hərbi təxribatlar törədildi və Ali Baş Komandan elə həmin gecə əks-hücum əmri verdi.

Sonra nələr baş verdiyi hamıya məlumdur. Qarabağa zəfər yürüşümüzün hər günü, hər saatı, hər anı AZƏRTAC tərəfindən salnamələşdirilib və bu materiallar səkkiz dildə yayılıb. İstədiyiniz vaxt saytımızı açıb baxa bilərsiniz (CƏBHƏ XƏBƏRLƏRİ; NOVOSTİ S FRONTA; FRONTLINE NEWS; NACHRİCHTEN VON DER FRON; NOUVELLES DE LA LİGNE DE FRONT; NOTICIAS DE FRONTERA;

Şanlı Ordumuza cəmi 44 gün kifayət etdi ki, düşmənin başını dəmir yumruğu ilə əzsin, Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Murovdağda, Suqovuşanda, Hadrutda, Şuşada, ümumilikdə, 5 şəhər, 4 qəsəbə və 286 kənddə dövlət bayrağımızı ucaltsın, düşməni ağ bayraq qaldırmağa məcbur etsin.

İkinci Qarabağ müharibəsi öz tempi, müasir texnikanın, xüsusən PUA-ların birbaşa döyüş meydanında geniş tətbiqi, əməliyyatların məharətlə idarə olunması, zabit və əsgərlərin döyüşkənliyi və digər parametrləri baxımından dünya hərb tarixinə XXI əsrin müharibəsi kimi yazıldı. Artıq beynəlxalq aləmdə inkişafın Azərbaycan modeli ilə yanaşı, Azərbaycanın müharibə modelindən də danışılır.

### İyirmi birinci əsrin müharibəsi

Böyük Qələbə ilə başa çatmış Vətən müharibəsinin gedişini, döyüş taktikasını təhlil etmək və qiymətləndirmək hərbi ekspertlərin, mütəxəssislərin işidir. Qırx dörd günlük bu müharibə barədə bəlkə də 44 il danışılacaq. Mən isə sadəcə olaraq, bəzi düşüncə və müşahidələrimi bölüşməklə kifayətlənəcəyəm.

Ermənistan 30 il ərzində öz havadarlarını, eləcə də Fransadan hərbi mühəndislər cəlb edərək cəbhə boyunca üç-dörd, bir sıra istiqamətlərdə hətta beş müdafiə xətti, eşelonlanmış dərin müdafiə sistemləri, keçilməsi çox çətin olan istehkamlar qurmuşdu. Əsas strateji yüksəkliklər düşmənin əlində idi. Ərazinin mürəkkəb relyefi, dağ-dərə onlar üçün əlavə üstünlüklər yaradırdı. Üstəlik, erməni tərəfi Qarabağa havadarlarının onlara peşkəş etdiyi azı 2-3 milyard dollarlıq hər cür silah yığmışdı.

Görünür, işğalçı ordu keçilməz saydığı üçqat, beşqat müdafiə xətlərinə, mühəndis-istehkam qurğularına, arsenalındakı saysız-hesabsız müdafiə və hücum silahlarına güvənirdi. Paşinyan da buna güvənərək ağzı köpüklənə-köpüklənə danışır, bizə hədə-qorxu gəlirdi. Bu silahlardan, hərbi texnikadan bir neçəsinin adını çəkmək kifayətdir ki, əyani təsəvvür yaransın: “S-300”, “S-125”, “Osa”, “KUB”, “TOR”, “KRUQ”, “Toçka-U” zenit-raket kompleksləri, “Elbrus” əməliyyat-taktiki raket kompleksi, özüyeriyən “Akasiya”, “Qvozdika” artilleriya qurğuları, “Smerç”lər, “Qrad”lar, “Uraqan”lar, habelə “Su-25” təyyarələri, PUA-lar, tank əleyhinə vasitələr, radiolokasiya stansiyaları, ballistik raketlər, daha nələr və nələr...

Müzəffər Ali Baş Komandan İlham Əliyev dekabrın 1-də Laçın rayonunun işğaldan azad olunması ilə əlaqədar xalqa etdiyi müraciətində düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikasının siyahısını açıqladı. Saymaqla qurtarmır. Bəzilərinin adını ilk dəfə eşitdiyimiz bu silah-sursatın, hərbi texnikanın gücünü, qiymətini mütəxəssislər yaxşı bilir.

İkinci Qarabağ müharibəsi göstərdi ki, Azərbaycan Ordusu texniki cəhətdən ən müasir silahlarla təchiz olunub. Xüsusən Türkiyə “Bayraqdar”larının, İsrail PUA-larının dəqiq zərbələri nəticəsində döyüşlərin ilk günlərində düşmənin yüzlərlə hərbi texnikasını, minlərlə əsgərini məhv etmək mümkün oldu. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edildi. Müdafiə Nazirliyinin yaydığı həmin videogörüntülər bir çox ölkələrdə öyrənilir və öyrəniləcək, hərbi kitablara salınacaq.

**Məsələ təkcə silahdadırmı?** Prezidentimizin dəfələrlə vurğuladığı kimi, bayrağı qaldıran, onu düşmən mövqeyinə, azad edilmiş torpaqlara sancan əsgər və zabitdir. Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular. Azərbaycan əsgəri düşmənin keçilməz hesab etdiyi müdafiə xətlərini öz qəhrəmanlığı, peşəkarlığı sayəsində yardı, parlaq və misilsiz Şuşa zəfərinə imzasını atdı...

### Müasir hərb tarixində misli görünməmiş Şuşa əməliyyatı

Vətən müharibəsinin təfərrüatlarına hələ tam aydınlıq gəlməyib. Amma indidən əminliklə demək olar ki, Şuşanın işğaldan azad edilməsi əməliyyatı tarixdə əbədi qalacaq.

Qarabağın tacı, döyünən ürəyi Şuşa təbii istehkam olduğundan şəhərə tanklarla, yaxud digər ağır silahlarla girmək mümkün deyildi. Onu almağın iki variantı vardı. Birinci halda şəhərdəki düşmən qüvvələrini hava zərbələri, top atəşləri ilə məhv etmək olardı. Komandanlıq buna getmədi. Çünki şəhərin bombardman edilməsi böyük dağıntılara səbəb olacaqdı. Buna görə də alternativ variant kimi əlbəyaxa döyüş taktikası seçildi. Qəhrəman əsgər və zabitlərimiz yüngül silahlarla qalın meşələrdən, dərin dərələrdən keçərək, qayalar, dağlar aşaraq düşməni üzbəüz döyüşdə məhv etdi.

Şuşa döyüşlərinin getdiyi vaxt Xankəndidə olan xarici jurnalistlərdən biri ermənilərin düşdüyü acınacaqlı vəziyyəti belə təsvir edirdi: Şuşanı müdafiə edənlər pərən-pərən düşüblər. Hərbi təcili yardım maşınlarında onlarla yaralı qan içində Xankəndi xəstəxanasına daşınır. Qalan döyüşçülər yorğun halda yolboyu hərbi geyimlərini çıxarıb ataraq dağdan enirlər. Təcili yardım maşınları aramsız olaraq gedib-gəlir. Avtomobildə yaralı əsgərlər bir-birinin üstünə qalaqlanıb. Onların aldığı xəsarətlər əlbəyaxa döyüşlər getdiyinin sübutudur. “Le Monde” nəşrinin həmin günlərdə yaydığı başqa bir reportajda deyilirdi ki, Ermənistan ordusunun məğlubiyyətə uğradılmış hərbçiləri yaralı halda Şuşanı tərk edərək Xankəndiyə qaçırlar.

Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də xalqımıza Şuşanın azad edilməsi müjdəsini verdi. Şuşa zəfəri, əslində, müharibənin taleyini həll etdi. Ertəsi gün daha 70-dən çox kəndin azad olunması xəbəri gəldi və bundan bir gün sonra Paşinyan Azərbaycan Prezidentinin şərtlərini qəbul edərək kapitulyasiya aktına imza atmağa məcbur oldu. Nəticədə noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları bir güllə atılmadan, heç bir şəhid verilmədən azad edildi.

Azərbaycan Ordusu azadlıq ordusu, Ermənistan ordusu işğalçı ordudur. Azərbaycan əsgəri öz torpağında vuruşurdu, erməni əsgəri özgə torpağında. Bu, bizim mənəvi üstünlüyümüz, silahdan heç də az rol oynamayan yenilməz döyüş ruhu idi. Baxın, erməni əsgərləri kütləvi surətdə fərarilik edirdilər, hətta qaçmasın deyə ayağı zəncirlənmiş əsgəri gördük. Azərbaycan əsgəri isə yarası sağalmamış ön cəbhəyə can atırdı. Ermənistanda hərbi xidmətdən yayınmaq üçün hər vasitəyə əl atırdılar. Azərbaycanda isə cəbhəyə getmək üçün minlərlə gənc növbəyə yazılmışdı. Fərqimiz həm də bunda idi.

Vətən müharibəsi, onun şanlı epizodu olan Şuşa əməliyyatı kimin kim olduğunu göstərdi. Azərbaycan və Ermənistanın bu təkbətək döyüşü “məğlubedilməz erməni ordusu” mifini darmadağın etdi, həm düşmənə, həm də dünyaya bizim gücümüzü göstərdi, haqqın və ədalətin təntənəsi oldu...

### Üç cəbhədə mübarizə və hər üçündə qələbə

Müasir müharibələrin taleyini təkcə silah həll etmir. Tam qələbə döyüş meydanında, informasiya məkanında və diplomatik müstəvidə paralel mübarizə sayəsində əldə olunur. Azərbaycanın Vətən müharibəsində qazandığı möhtəşəm Qələbə bunun ən yeni sübutu, illər boyu həyata keçirilən ordu quruculuğunun, məqsədyönlü xarici siyasətin, aramsız diplomatik səylərin nəticəsidir.

Bu baxımdan dövlətimizin başçısının Qarabağda hərbi əməliyyatların aktiv fazasında xarici KİV-lərə verdiyi çoxsaylı müsahibələri diqqəti xüsusilə cəlb edir. Prezident İlham Əliyev dərin biliyi, dəmir məntiqi, təkzibolunmaz arqumentləri ilə ermənipərəst medianın qarayaxma kampaniyasını zərərsizləşdirə bildi, informasiya cəbhəsini təkbaşına yardı. Xüsusi tapşırıq alan bəzi Qərb müxbirləri mətləbi yayındırır, feyk məlumatlara istinad edərək Azərbaycan tərəfinin ünvanına əsassız ittihamlar səsləndirirdilər. Münaqişədə Türkiyənin iştirakı, F-35-lərdən istifadə, Suriya və Liviyadan muzdlular cəlb olunması, atəşkəsin pozulması və bir çox digər qıcıqlandırıcı suallar dönə-dönə təkrarlanırdı. Dövlətimizin başçısı hər dəfə bu ittihamları təkzibolunmaz fakt və dəlillərlə puça çıxarır, Qarabağın tarixindən, münaqişənin səbəblərindən danışır, fürsətdən istifadə edərək, dünyaya əsl həqiqətləri çatdırırdı.

Almaniyanın ARD telekanalına müsahibədəki bir suala və Prezidentin cavabına diqqət edək.

Sual: Biz orada, bu ərazidə olduqda bizdə bir sual ortaya çıxdı. Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır?

Cavab: Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir.

Cavab qısa və lakonikdir. Amma elə dərin məna kəsb edir, elə təsirlidir ki, inanmıram, bir də hansısa qərbli müxbir bizim Prezidentə buna bənzər sual ünvanlasın.

Ötən 17 ilə nəzər salsaq görərik ki, Prezident İlham Əliyev Dağlıq Qarabağ məsələsinin daim gündəlikdə qalması üçün əlindən gələni edib. Bütün nitq və çıxışlarında, beynəlxalq təşkilatların tribunalarında, dünya liderləri ilə bütün görüşlərində, müsahibələrində bu barədə danışıb. Çalışıb ki, təcavüzkarın və zərərçəkmiş tərəfin kim olduğunu hər kəs bilsin. İndi dünyada hamı bunu bilir. Vətən müharibəsinin uğurunu şərtləndirən əsas amillərin biri də məhz budur.

**Ardı Səh. 10**

# Publisistik düşüncələr: Günəşli payızın qırx dörd anı

*Qüdrətli sərkərdə və müdrik Prezident İlham Əliyev bizi qalib xalqa çevirdi, bölgədə yeni reallıqlar yaratdı*



2020-ci il, 17 noyabr. Cəbrayıl şəhərində üçrəngli bayrağımız qaldırılır

Əvvəli-Səh-9

Döyüş meydanındakı qələbəyə gəlincə, müharibənin sonunda yaşanan tam fərqli iki mənzərəni təsvir etmək yetər: Cəbhənin bir tərəfində qalib Ordunun məğrurcasına dayanmış Müzəffər Ali Baş Komandanı İlham Əliyev, digər tərəfində ordusu dağılmış, rəzil duruma düşmüş Paşinyan. Xalqımız öz lideri İlham Əliyevin portretini başı üzərinə qaldırır. Paşinyan isə lağa qoyulur, ona lətifələr qoşulur.

"Cəbrayıla yol çəkirdin, Paşinyan. Nə oldu? Hanı o yol? Bəs Şuşada parlament binası tikirdin, nə oldu? Cəhənnəmə getdi", - Prezidentimizin bu sözləri insanlar arasında zərb-məsələ çevrilib. Biri dediyinə əməl etməyəndə onu məsxərəyə qoyub soruşurlar: "Nə oldu bəs, Paşinyan?"...

## Yandırılmış torpaq və sabaha boylanan Qarabağ

Keçmiş müharibələrdə "Yandırılmış torpaq" adlandırılan bir taktika vardı. İşğalçı ordu geri çəkilmək zorunda qalanda hər şeyi dağıdır, yaxud talayıb aparır, apara bilmədiyinə od vurub yandırırdı. Bu, həm də ona görə edilirdi ki, yerli əhali, torpağın əsl sahibi bir daha o yerlərdə məskunlaşa bilməsin. 1977-ci ildə Cenevrə Konvensiyasının bir nömrəli Protokolunun 54-cü maddəsi ilə "Yandırılmış torpaq" taktikası qadağan olunub və belə əməllər müharibə cinayəti sayılır.

Ermənilər XXI əsrdə sivil dünyanın gözü qarşısında ibtidai icma dövrünə xas olan bu taktikanı işlədirlər. Prezidentimizin dediyi kimi, elə bil bu yerlərdən vəhşi qəbilə keçib. İşğaldan azad edilmiş şəhər və kəndlərimizin videogörüntüləri ürək ağrıdır. Vəhşi düşmən daş üstə daş qoymayıb, hər yeri xarabazara çevirib. Ağaclar kəsilib, meşələr qırılıb və yandırılıb, torpaqlar yararsız hala salınıb. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı səhranı xatırladır. Ağdam sanki ruhlar şəhəridir, atom bombası heç Xirosimanı da belə dağıtmamışdı.

Ermənistanın müharibə cinayətləri bununla da bitmir. Gəncəyə iki dəfə ballistik raket atıldı, Bərdə kasetli mərmilərlə atəşə tutuldu. Tərtərə, Ağdama, Goranboya atılan mərmilərin sayı-hesabı bilinmir. Yüzədək mülki şəxs - uşaqlar, qadınlar, qocalar erməni faşizminin qurbanı oldu, minlərlə ev, yaşayış binası, infrastruktur obyekti dağıdıldı. Təfərrüata varıb vaxt almaq istəmirəm. Bu cinayətlərin izlərini əks etdirən fotolar, videolar, reportaj və xəbərlər AZƏRTAC-ın saytındakı "Dünya erməni faşizmini görsün" bölməsində yeddi xarici dildə (#russkiy #English #Deutsche #Fran?ais #Espanol #??????? #??) cəmləşib, sənədləşib.

Onların faşist simasını bütün dünyanın görməsi vacibdir. Qoy, hamı görsün və bilsin ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Hamı bilsin ki, biz təkcə işğalçı ordunu deyil, bəşəriyyət üçün təhlükə mənbəyi olan erməni faşizmini məhv etmişik. Prezidentin tapşırığı ilə Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin işğaldan azad edilmiş rayonlara səfərləri təşkil olunur, onlar erməni vəhşiliyini öz gözləri ilə görürlər. Törədilən dəhşətli dağıntılar bir-bir qeydə alınacaq, sənədləşdiriləcək beynəlxalq məhkəməyə veriləcək. Erməni faşistləri yəqin ki, bu dəfə ədalət divanından yayına bilməyəcəklər.

Düşmən güman edirdi ki, bu dağıntılardan sonra azərbaycanlılar bir də o yerlərə qayıtmayacaq. Səhv etdilər. Azərbaycan xalqı 30 ildir doğma torpaqlarına qovuşmaq arzusu ilə yaşayır, Qarabağla nəfəs alırdı. Prezidentimiz işğaldan azad olunmuş Füzuli və Ağdam şəhərlərinə səfər edərkən Qarabağla bağlı gələcək planlarını açıqladı. Bəyan etdi ki, bütün şəhər və kəndlər baş plan əsasında bərpa olunacaq. Vətəndaşların doğma yurda qayıtması üçün dövlət tərəfindən lazımi kömək göstəriləcək. Artıq Füzulidən Şuşaya yeni yolun çəkilişinə, Suqovuşan və Talış kəndlərinə gedən tarixi yolların bərpasına başlanıb.

İkinci Qarabağ müharibəsi bölgədə yeni reallıq yaradıb. Zaman-zaman başı üstündən tufanlar əsmiş gözəl Qarabağımız böyük ümidlə gələcəyə boylanır. Şuşa, Ağdam məscidində 27 ildən sonra yenə azan səsi eşidilir, "Qarabağ şikəstəsi" Qarabağ torpağında səslənir. O yerlərə 30 ildən sonra həyat qayıdır, o torpaqların yeni dövranı başlayır...

## Bölgədə yeni reallıq və ya epiloq əvəzi

Vətən müharibəsinin uğurlu sonluğu bölgədə qüvvələr nisbətini dəyişdi, yeni reallıq yaratdı. İndi biz tək deyilik. Qardaş Türkiyə artıq yanımızda, siyasi masadadır. Qarabağda atəşkəsə türk əsgəri də nəzarət edəcək. Ankaradan ən yüksək səviyyədə mesajlar gəlməkdə davam edir: biz Azərbaycanın yanında olmağa davam edəcəyik. Bu siyasi-mənəvi dəstək gücümüzə güc qatır, Ermənistanın havadarlarını müdaxilədən çəkindirir.

Azərbaycan və Türkiyə prezidentlərinin bir-birinə qardaş deyə müraciət etməsi, ay-ulduzlu bayraqlarımızın yanaşı dalğalanması dostlarımız üçün fəxarət, bədxahlarımıza göz dağıdır.

Bu gün 30 il davam edən status-kvo da yoxdur. Status məsələsi gündəlikdən çıxıb. Əvəzində Qarabağın dağılmış şəhər və kəndlərinin bərpası planlarının icrası başlayıb.

Mübarizə isə hələ bitməyib. Ermənistanın, onun havadarlarının yeni planlar cızması, fitnə-fəsada əl atması istisna edilmir. Fransa Senatının Qarabağla bağlı məkrli qətnaməsi buna misal ola bilər. Bu, o deməkdir ki, işğaldan azad edilmiş Qarabağın hər yerində olduğu kimi, siyasət meydanında da gözlə görünməyən minalar, sualtı qayalar, aysberqlər var. Bu, o deməkdir ki, mübarizə bu gün də var, sabah da.

Dünyadakı çoxsaylı münaqişələrin və müharibələrin gedişinə nəzər salsaq görərik ki, son nöqtəni güclü tərəf qoyur. Azərbaycan xalqının Qarabağ uğrunda 44 günlük Vətən müharibəsi buna ən yeni nümunədir. Ötən 17 ildə güc topladıq, düşmənin başını dəmir yumruqla vurub əzdik. Otuz il davam edən işğala, ədalətsizliyə 44 gündə son qoyuldu. Gücümüzü təkcə düşmən yox, bütün dünya gördü. Sözsüz ki, qalib Azərbaycan gündən-günə, ildən-ilə daha da güclənəcək. Müdrik Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızı inamla qələbədən-qələbəyə aparacaq.

***Aslan Aslanov***
***AZƏRTAC-ın İdarə Heyətinin sədri,***
***OANA-nın vitse-prezidenti***

# Döyüşdə şücaət göstərən şəhidimiz - Emin Məmmədov



Emin Vətən oğlu Məmmədov. Torpaq yolunda şəhid olan, əbədi olaraq dünyamıza daxil olan Azərbaycanın igid oğlu. Qəlbimizdə möhtəşəm bir abidəsi ucalır. Bu şəhidimizə olan ehtiram abidəsidir. O, artıq bir ananın deyil, bütün xalqımızın qəhrəman oğludur. Şəhid Emin Vətən oğlu Məmmədov 1992-ci ilin avqustun 15-də Beyləqan rayonunun Qəhramanli kəndində anadan olub. 1998-2009-cu illərdə şəhid Tağı Məmmədov adına tam orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılmış və hərbi xidməti başa vurduqdan sonra elə hərbi xidmətdə işləməyə qərar vermişdir. Uşaqlıqdan, yeniyetməliyindən canına, qanına hopmuşdu vətənpərvərlik, vətən sevgisi. Çevikliyi, iti gözü ilə hərbi xidmətdə xüsusi təyinatlı dəstəyə verilir. Sonra Türkiyə hərbi qüvvələrində türk ordusunun SINAPER kursuna daxil olur. Türkiyədən gələndən sonra xüsusi təyinatlı kəşfiyyatın baş snaperçisi olur. Sanki Vətən müharibəsinə vəsiqə almaq üçün çalışırdı. Bilirdi ki, gec-tez erməni işğalçıların torpaqlarımızdan qovmaq zamanı yetişəcək. Atlı olub yol gedirdi. Hərbi xidmətdə olduğu dövrlərdə bir çox fərqlənmə mükafatlarına layiq görülür. 27 sentyabr tarixində Vətən müharibəsi başlayanda Emin də ön cəbhədə Füzuli istiqamətində igidliklə döyüşür. Füzulinin alınmasında və üç erməni postunun alınmasında iştirak edir. Düşməni lərzəyə salan Emin 50-yə yaxın erməni əsgərini məhv edir. Erməniyə Azərbaycan oğlunun, döyüşçüsünün gücünü göstərir. Elə Füzulidə də igidcəsinə şəhid olur.

Müqəddəs Vətən torpağını qanı ilə suvaran oğullardan bir kimi yaddaşlarda iz salır. Vətənin harayına, səsinə səs verib müqəddəs şəhidlik zirvəsinə yüksəlib. Artıq bir ana övladından el oğluna çevrilib. Vətənin şəhid oğlu. Şərəflidir bu yol. Hər zaman fəxarətlə vüqarından söz açacağıq 28 yaşlı Eminin. Vətən savaşında şücaət göstərərk düşmənə dönməzliyini sübut edən Emin Məmmədov kimi şəhidlərimiz, qazilərimiz bir tarix yazdılar. Xalqın adını uca tutan igidlərimizdən bir kimi Eminin də həyat yolunun hekayəsi var. Oxuduqca son yetməyəcək hekayə. Arzusu, həyatı yarımçıq qaldı, amma ən yüksək zirvəyə yüksəldi - Şəhidlik! Adının qarşısına baş əyirik bizim QƏHRƏMAN. Allah rəhmət eləsin!

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Regionda dəyişən proseslər Azərbaycanın lehinə olacaq”

“Rəsmi Moskva ilk növbədə Araik Arutunyanın oyuncaq rejiminin fəaliyyətini qadağan etməli, burada “müdafiə ordusu” adlandırılan erməni silahlı birləşmələrini ləğv edib, ermənilərlə azərbayacanlılılar arasında sülh missiyasını dəstəkləməlidir”. Bunu SİA-ya politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, Ermənistan Müdafiə naziri Vaqarşak Arutunyan Xankəndiyə səfəri ilk növbədə Azərbaycanın ərazi bütövlüyünü pozmaq və onun səfəri sülh imkanlarının formalaşmasının qarşısını almaqdır: “İlk növbədə Rusiya sülhməramlı qüvvələri orada bu kimi məsələlərin qarşısını almalıdır və buna borcludur, amma hələlik dəstək verir. Burada Azərbaycana qarşı yeni bir təzyiq mexanizmi fomalaşdırır. Ona görə də Rusiya Türkiyə ilə birgə Xankəndidə və Laçın dəhlizində patrul sisteminə razı olmadı”.

Politoloq qeyd edib ki, müharibədə Azərbaycan böyük qələbə qazanıb və bu birmənalıdır: “Azərbaycan hələlik nəyi bacarıbsa, onu da edib. Biz tarixi qələbə qazanmışıq. Rusiya danışıqlar prosesindən kənar siyasi fəaliyyət göstərəcəksə, bunun qarşısı alınmalıdır. Azərbaycanlılar Xankəndi, Xocalı, Ağdərə, Xocavənd və Şuşanın kəndlərinə qayıtmalıdırlar. Bunu Rusiya sülhməramlı qüvvələri koordinasiya etməlidir. Proses uzun çəkəcək və regionda dəyişən proseslər Azərbaycanın lehinə olacaq”.

# Erməni vandalizmi Donatella Roveranın qeydlərində



Amnesty International təşkilatının böhran üzrə baş məsləhətçisi Donatella Rovera özünün tvitter hesabından Ermənistanın 30 il davam edən hərbi təcavüzü, Azərbaycanın öz torpaqlarını azad etməsi üçün başlatdığı Vətən müharibəsi zamanı erməni silahlılarının Azərbaycanın dinc əhalisinə qarşı törətdikləri vandalizm barədə materiallar paylaşıb. SİA həmin paylaşımları təqdim edir:

Nigarın anası mənə dedi: “O, mənim yeganə övladım idi, mənim bütün varlığım idi”. Nigar, 15-i doğum günü ərəfəsində qohumları və qonşuları, o cümlədən bir neçə uşaq ilə Ermənistan qüvvələri tərəfindən Gəncəyə 17 oktyabrda atılan ballistik raket nəticəsində öldürüldü”.

Daha bir paylaşım Ermənistan silahlı qüvvələrinin Gəncədə dinc əhalini raket atəşinə tutması ilə əlaqədar günahsız insanların qətlə yetirilməsi ilə əlaqədardır. Donatella Rovera əlavə edib ki, Dağlıq Qarabağın Kəlbəcər bölgəsindəki qəbiristanlıqda, 1993-cü il erməni işğalından əvvəl burada dəfn edilmiş azərbaycanlıların məzarları da dağıdılıb. Eləcə də, xüsusilə vurğulayıb ki, 27 illik işğaldan sonra Azərbaycan ərazisini tərk edən ermənilər görünən bəzi məzarları yenicə dağıdıblar.


Donatella Rovera @DRovera · 13h
“She was my only child, she was all I had”, Nigar’s mum told me. Nigar was killed on the eve of her 15th birthday with 13 relatives & neighbours, including several #Children, in a massive ballistic missile strike launched by #Armenia’s forces on #Ganja, #Azerbaijan, on 17 Oct.

# Könüllülük ümummilli hərəkata çevrilib

*5 dekabr Beynəlxalq Könüllülər Günüdür*



5 dekabr dünyada Beynəlxalq Könüllülər Günü kimi qeyd olunur. Bu gün hər il BMT Baş Assambleyasının 1985-ci il 17 dekabr tarixində qəbul olunan qətnaməsi əsasında keçirilir. Qeyd olunan günün böyük anlamı var. Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. “Könüllü” termininin etimologiyasına nəzər salsaq görərik ki, bu söz öz ilk dəfə 1600-cı illərdə istifadə olunub. “Hərbi xidmət üçün özünü təqdim edən” mənasını daşıyır. Müasir dövrümüzdə ölkəmizin demək olar ki, hər bir yerində könüllü gənclərin də payı var. Azərbaycanda həyata keçirilən beynəlxalq və qitə miqyaslı tədbirlərdə, o cümlədən idman yarışlarında gənclərin könüllülər qrupunda təmsil olunması vətənpərvər, milli köklərə bağlı, müasir dünyagörüşlü, şəxsi keyfiyyətləri yüksək olan vətəndaş kimi formalaşmasını özündə təcəssüm etdirir. Könüllülük fəaliyyəti gənclərdə faydalı əmək, həmrəylik kimi dəyərlər aşılamış olur. Artıq bir neçə gündən sonra yola salacağımız 2020-ci il Azərbaycan Respublikasında dövlət başçısının Sərəncamı ilə “Könüllülər ili” elan edilmişdir. Bu Sərəncam gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədi daşıyır. Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır. Bu fəaliyyətlə məşğul olanlar digər şəxslərə kömək etməklə yanaşı, öz bilik və bacarıqlarını təkmilləşdirmək imkanı qazanırlar. Ölkəmizdə könüllülük fəaliyyəti üçün hər cür şərait yaradılıb, bu istiqamətdə zəruri hüquqi baza mövcuddur. Eyni zamanda, bütün dövlət qurumları tərəfindən bu fəaliyyətə cəlb olunmuş təşkilat və şəxslərə lazımi dəstək göstərilir. Bu fəaliyyətin təşviqi məqsədilə dövlətimiz tərəfindən zəruri addımlar atılmış, normativ hüquqi baza təkmilləşdirilmiş, dövlət dəstəyi mexanizmləri formalaşdırılmışdır. Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 9 iyun 2009-cu ildə “Könüllü fəaliyyət haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə minib. Bu Qanunun məqsədi hüquqi və fiziki şəxslərin əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti sahəsində yaranan münasibətləri tənzimləyir. Qanunun qəbul edilməsi Azərbaycan könüllülük fəaliyyətinin inkişafında təkanverici rol oynadı. Bu qanunla Azərbaycanda könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoydu. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərin həyat tərzinə çevrilib. “Regional İnkişaf” İctimai Birliyi, “Bir” Tələbə könüllülüləri və digər könüllü hərəkatları yaranıb, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qrupları formalaşıb. Ölkəmizdə mərkəzi icra hakimiyyəti orqanı və bütün yerli icra hakimiyyəti orqanları yanında könüllü qrupları yaradılıb. Belə ki, bu gün ölkəmizdə “Gənc Könüllülər”, “RİİB Könüllüləri”, “BİR Tələbə-Könüllülər”, “Aqrar İnkişaf Könüllüləri”, “KOB Könüllüləri”, “Miqrasiya Könüllüləri”, “Ədliyyə könüllüləri” və s. qurumlarda müxtəlif könüllülər təşkilatları uğurla fəaliyyət göstərirlər.

Eyni zamanda, 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN Xidmət) yanında könüllü təşkilat olan ASAN Könüllüləri Təşkilatı yaradılıb. “ASAN xidmət” mərkəzləri yarandığı gündən könüllülərin fəaliyyətindən geniş istifadə olunur. Könüllülər “ASAN xidmət”in ayrılmaz tərkib hissəsinə çevrilib. Onlar yüzlərlə fərqli layihələr həyata keçiriblər, müxtəlif təlim və treninqlərə cəlb ediliblər. 2013-cü il dekabrın 19-da “ASAN Könüllülərinin I Qurultayı” keçirilib. Əlbgttə ki, keçirilən tədbirlər ölkəmizdə vüsət almış gənclər siyasətinin tərkib hissəsidir. Ölkəmizdə keçirilən Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, “Formula 1” yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynayıblar.

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva könüllülərə, onların fəaliyyətinə yüksək dəyər verirlər. Hazırda ölkəmizdə yürüdülən gənclər siyasətinin mərkəzində gənclərin maraqları, onların potensiallarının artırılması, cəmiyyətə yararlı vətəndaş kimi yetişmələri dayanır. 2020-ci ilə “Könüllülər ili”ndə Azərbaycan vətənpərvər oğulları könüllülüyün daha bir nümunəsini əməldə ifadə etdilər. Ali Baş Komandanın ətrafında sıx birləşərək Vətən müharibəsində iştirak etməyə qərər verdilər. İsrarlı olaraq torpaqlarımızı müdafiə etməyə qalxdılar. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir. Vətənin müdafiəsinə qalxan oğullar erməniyə dərs vermək, işğal altında olan torpaqlarımızı azad etmək uğrunda könüllü olaraq orduda xidmət etmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etdilər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çağırışına səs verdilər. Yaşından asılı olmayaraq hər kəs müsəlləh əsgərə çevrildi. Sağlam düşüncəli gənclərimiz könüllü olaraq ön cəbhəyə yola düşdülər. Vətənin müdafiəsində dayandılar. Heç şübhəsiz ki, öz iradəsi və sərbəst seçimi əsasında əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti həyata keçirən könüllülük fəaliyyətinin əsasında cəmiyyət, vətən naminə təmənnasız işlərin görülməsi dayanır.

***Zümrüd BAYRAMOVA***

# Humanizmi simasızlıqla, ikiüzlülüklə qarışıq salanlar

***Ikinci Qarabağ müharibəsindən sonra Ermənistanın düşdüyü acınacaqlı durum günün reallığıdır və bu, işğalçı ölkə vətəndaşlarının da, elə dünya ictimaiyyətinin də diqqətindən yayınmayıb. Öz işğalçılıq siyasəti sayəsində bütün qlobal layihələrdən məhrum olmuş, küncə qısılmış, marginallaşmış Ermənistanin onsuz da iqtisadi inkişafdan məhrum olduğu bəlli idi, vətəndaşları da əllərini belə üzmüşdülər ölkə iqtisadiyyatından və bu işğalçı ölkənin iqtisadiyatı yox səviyyəsində idi. Üstəlik, müharibə zamanı itgilər Ermənistanı tamamilə çökdürdü desək, yanılmarıq. Bu itgilərə maliyyə vəsaitləri itgiləri də daxildir, həmçinin canlı qüvvə itgiləri də. Dağlıq Qarabağa məcburi yerləşdirilən erməni əsilli əhalinin Ermənistan ərazisinə axın etməsi də Ermənistan hökuməti üçün daha böyük bir baş ağrısına çevrilib ki, bu da bundan sonrakı əlavə itgiləri proqnozlaşdırmağa əsas verir.***

Təsəvvür edəndə ki, 30 il ərzində dilənib-dolanıb silah, sursat, hərbi texnika və digər vasitələr əldə edən ölkə cəmi 44 gün ərzində bütün bunlardan məhrum oldu, bu zaman Ermənistanın vəziyyətini başa düşmək çətin deyil. İstənilən bir ölkənin hərbi bazasının olması gərəkdiyini nəzərə alaraq isə, bundan sonra Ermənistan adlı bir ölkənin hansı çətinlik qarşısında qaldığını da təsəvvür etmək olar. Deyək ki, heç bir gəlir yeri, iqtisadiyyatı olmayan, üstəlik Dağlıq Qarabağdakı Azərbaycana məxsus mədənlərdən də məhrum olan bir dövlət bundan sonra hansı vəsaitlər hesabına itirilənləri bərpa edəcəyi sual altında qalır.



Sadalanan itgilər həqiqətən də Ermənistan üçün faciəvidir və əgər yardımlar, köməkliklər olmasa, bu ölkənin bundan sonra necə ayaqda duracağı da hələki müəmmalı olaraq qalır. Qeyd olunduğu kimi, əgər yardım və köməkliklər olmasa. Məsələ burasındadır ki, iqtisadiyyatını bərpa etməsi üçün düzgün istiqamət verilməsi, doğru yolun göstərilməsi, işğalçılıqdan, şər-böhtandan əl çəkməsi məsləhətləri əvəzinə, bu işğalçı ölkəyə tamam başqa bir prizmadan yanaşılır və bir növ haqsız olduqları halda müdafiəsinə qalxılır. Özü də, məsələn, Fransanın timsalında dünyanın sayılıb-seçilən, özünü demokratik adlandıran, hesab edən ölkələri tərəfindən. “Qoca qitə”də özünə yaxşıca yer eləmiş və özünü demokratik ölkə kimi bəyan eləmiş, hətta “tanıtmış” Fransa gah nala vurur, gah da mıxa. Amma necə vurursa, heç də onun vurduğu demokratiyanın müdafiəsi, ədalətin naminə deyil, əksinə, demokratiyanın boğulması, haqqın, ədalətin qarşısının alınmasına xidmət edir.

İllərdir ki, Fransanın timsalında Avropa ölkələrində, özünü demokratik adlandıran dövlətlərdə hansı hadisələrin cərəyan etdiyini bütün dünya ictimaiyyəti görür. Dinc nümayişçilərə qarşı bu ölkədə edilən təzyiqləri bütün dünya ictimaiyyətindən gizlətmək olmaz və heç gizlədə də bilməsdilər. Eləcə də İspaniyada Katalonlara qarşı şiddət tətbiq edilməsinin də şahidi olmuşuq. Yəni, “Qoca qitə”də nələrin baş verdiyi, hansı ədalətsizliklərin olduğu, demokratiyanın, söz azadlığının pozulması nümunələri var və bunu artıq bilməyən yoxdur. Maraqlıdır ki, belə bir halda, bu ölkələrin timsalında kimlərsə, Azərbaycanı hansı haqla müzakirə etməyə cürət edir, yaxud, üzündə necə üz tapır müzakirə etməyə? Bunlar nəinki mühakimə, heç müzakiəyə belə çıxarmaq üçün mənəvi haqq sahibləri deyil. Həm öz daxillərindəki vəziyyətlə əlaqədar, həm də ümumiyyətlə Azərbaycanın haqlı, ədalətli mövqeyi ilə əlaqədar.

Bəli, Ermənistan itkilər verdi və acınacaqlı vəziyyətə düşdü, bu işğalçı ölkənin vətəndaşları çətin durumdadırlar və bu reallığı hamı görür. Amma bu o demək deyil ki, burada günahkar Azərbaycan tərəfidir. Əsla. Nəinki, belə düşünənlər, hətta belə düşünmək istəyənlər də yanılırlar. Bir çox hallarda isə qərəzli yanaşırlar. Çünki, Ermənistan dövlətinin, onun vətəndaşlarının başına gələnlər, acınacaqlı vəziyyətləri öz ədalətsiz, haqsız mövqelərinin, qanunsuz hərəkətlərinin, işğalçılıq, terrorçuluq siyəsətlərinin məntiqi nəticəsidir. Bu mövzuda kimsə, hansısa ölkə, hansısa qurum, təşkilat Azərbaycana qarşı ittiham səsləndirə bilməz. Çünki, Azərbaycan öz torpaqları ilə yanaşı, ədaləti, onların göstərmək istədiyi haqqı, qanunauyğunluğu bırpa edib, onların guya ən çox istinad etdikləri BMT qətmanələrini icra edib.

Dağlıq Qarabağda məcburi şəkildə məskunlaşdırılmış erməni əsilli insanların vəziyyəti ilə əlaqədar indi guya narahat olduqlarını göstərməyə çalışan, əslində isə, hansısa divident naminə ortaya atılan bəzi qüvvələr ədalət, humanizm carçısı nə vaxtdan olublar? Bu gün həmin o məcburi məskunlaşdırılmış ermənilərin İrəvana geri döndüklərini qaçqın, məcburi köçkün kimi qələmə vermək istəyənlər, özlərini onların halına yanan kimi təqdim edənlər 30 ilə yaxın bir müddət ərzində həqiqətən qaçqınlıq həyatı yaşayanların vəziyyətinə, halına görə niyə narahat deyildilər? Maraqlıdır, qaçqın və məcburi köçkün kimi ağır vəziyyət yalnız ermənilərə şamil ediləndə narahatçılıq doğurur?

İndi guya erməni əsillilərin halına yanan kimi özlərini göstərənlər üçün tarixi bir ekskursiya tövsiyyə edirik. Tövsiyyə edirik ki, düz 30 ilə yaxın bir müddət əvvəl Azərbaycan vətəndaşlarının həmin Dağlıq Qarabağdan, öz torpaqlarından, ata-baba yurdlarından, doğma yerlərindən məcburi şəkildə qovulduqlarını heç olmasa xatırlasınlar. Bəli, onlar, Azərbaycan vətəndaşları o zaman məhz qovuldular. Məcburi məskunlaşdırılan ermənilər kimi vaxt verilərək, təhlükəsizlikləri təmin edilərək, həqarət, təhdid edilməyərək deyil, qanunun, imzalanmış razılaşma sənədinin tələblətinə uyğun yox, qanunsuz şəkildə, vaxt verilmədən, hətta qırğınlara məruz qoyularaq, soyqırımlar törədilərək qovuldular. Xocalı faciəsi kimi soyqırıma imza atan erməni terrorçuları məhz bu separatçılıq əməlləri ilə Azərbaycan vətəndaşlarına qaçqınlıq həyatı yaşatdılar. Öz yurd-yuvalarını qoyub qaçmaq məcburiyyətində qalan insanları, əliyalın insanları, dinc əhalini qaçmağa belə qoymayaraq təqib edib amansızcasına qətlə yetirən erməni terrorçuları bununla da kifayətlənmədilər. Qaçarkən qarşılarını kəsərək, min bir işgəncə ilə öldürülən Azərbaycan vətəndaşlarının cəsədləri üzərində təhqiramiz hərəkətlər belə etdilər erməni vəhşiləri, vandalları. Hələ də barəsində məlumat belə olmayan, itgin düşən 5 min nəfərə qədər azərbaycanlı var. Təqribən 30 minə yaxın insan tələfatı barədə statistik rəqəmlər var ki, bu bəd əməllərin də müəllifi məhz həmin o işğalçı, separatçı, vəhşi ermənilərdir. Hətta, unutmaq lazım deyil ki, Ermənistanın bundan əvvəlki, üçüncü prezidenti Serj Sarkisyanın timsalında, həmin o terrorçular, separatçılar, özü də məhz Xocalı faciəsini törədənlər bu əməlləri ilə öyünməkdən belə çəkinmədilər. Bu barədə, törətdikləri soyqırım barədə açıq-aşkar bəyan etməkdən də çəkinmədikləri kimi, utanmadılar da. Əksinə, lovğalandılar. Xatırladaq ki, eks-prezident Serj Sarkisyan, “azərbaycanlılar elə bilirdilər ki, biz onlara heç nə etmərik, işgəncə verməərik, onları qətlə yetirmərik, amma Xocalı soyqırımı ilə biz bu stereotipləri qırdıq” deməklə, erməni terrorçuluğunun, separatçılığının, vəhşiliyinin, son olaraq, erməniliyin mahiyyətini açıb ortaya qoydu.

Az qala 30 il, əsrin üçdə biri qədər olan müddət ərzində qaçqın düşən Azərbaycan vətəndaşları ermənilər tərəfindən həm onlara verilən işgəncələrin, həm də qaçqınlıq həyatının acısını çəkdilər. Yaxınlarını itirən, barəsində heç bir xəbər öyrənə bilməyən qaçqınlar bu müddət ərzində hansı iztirablar çəkmədilər? Erməni vəhşiliyini görən bu qaçqınlar yaşadıqları kabusun bu illər ərzində əzabını da çəkdilər. Üstəlik bütün bunlarla yanaşı, vətən həsrəti, yurd-yuva həsrəti, ata-babalarının vandallar tərəfindən dağıdılan məzarlarını düşünmək əzabı nəinki yaşanılası, heç düşünüləsi belə deyil.

Bəli, müharibədə Azərbaycan mükəmməl qələbə əldə etdi, “Böyük qələbə” qazandı. Bu qələbə Azərbaycan xalqının 30 ilə yaxın müddət ərzində arzuladığı, yetişdirdiyi qələbə idi. Bu təkcə qələbə yox, tarixi ədalətin bərpası idi ki, bu gün ağzını əyən bir çox təşkilatlar, hətta ATƏT-in timsalında tanınmış beynəlxalq qurumlar bu ədaləti bərpa edə bilmirdilər, yaxud etmək istəmirdilər, bunu Azərbaycan özü etdi. “Nə yaradar, nə də düzər, yaradana ağız büzər” zərb məsəlində olduğu kimi, indi bu qüvvələr niyə ağız büzürlər? Guya axtardıqları ədaləti tapmadılarmı? Ədalət onlar üçün erməni əsillilərin haq-nahaq qələbəsi deməkdir, yoxsa Azərbaycanın haqq işinin qalib gəlməsi?

Hər bir halda ədalət zəfər çaldı, Azərbaycan öz ordusu, öz qüdrəti, öz gücü hesabına, Ali Baş Komandanının rəhbərliyi, siyasi iradəsi, qətiyyəti, uzaqgörənliyi, bacarığı ilə bu tarixi ədaləti bərpa etdi. Özü də qanunları əsas tutaraq, qanunlara riayət edərək, bütün beynəlxalq norma və prinsplə-ri, humanizm idayelarını rəhbər tutaraq buna nail oldu. Buna ağız büzmək yox, bunu təlqin etmək, bunu bütün dünya xalqlarına nümunə, örnək göstərmək gərəkir.

Azərbaycanın istər hərb mədəniyyətini, istər siyasi, diplomatik etikasını bütün dünyaya nümayiş etdirmək əvəzinə, bəzi qurumlar, erməni əsillilərin Azərbaycan tərəfindən qaçqın halına salındığını bəyan edirlər. Bu müharibənin nəticəsində Dağlıq Qarabağdan köçürülmüş insanların acınacaqlı halına dünyanın diqqətini çəkməyə, bununla da erməni təəssübkeşliyini, ermənipərəstliyini, satılmış mövqelərini nümayiş etdirərək hansısa rakursda divident əldə etməyə çalışırlar bəziləri. Bu isə ədalətin tərənnümü deyil. Məgər, ötən əsrin sonlarında qaçqın düşən Azərbaycan vətəndaşları ehtiyac içində deyildilərmi? Qaçqınlıq həyatı yaşamaq məcburiyyətində qalanların hansı şəraitə uyğunlaşdıqlarını bircə dəfə araşdırdılarmı bu ağzıgöyçəklər, bu 30 il ərzində? İndi bir neçə həftə ərzində erməni əsillilərin yaşayışındakı diskamfort bunları nə yaman narahat elədi? Bu narahatlıqdır, humanizm idayasıdır, yoxsa simasızlıq və yaltaqlıq?

Demokratiya, söz azadlığı, ələlxüsus, humanizm simasızlıq, ikiüzlülük, yaltaqlıq demək deyil. Humanist idayaları təbliğ və tərənnüm edənlər bunu hər zaman, hər kəsə qarşı etməlidirlər. Əks halda bu məhz simasızlığa, ikiüzlülüyə, yaltaqlığa və daha hansı iyrənc sifətlərə çevrilir, bəllidir. Görünür, indi özlərini ermənilərin açılarına, məğlubiyyət iztirablarına, qacğınlıq əzablarına biganə qala bilməyənlər kimi göstərərək, bunu hansısa ali dəyərlərə aid etmək istəyənlər humanizmi simasızlıqla, ikiüzlülüklə, yaltaqlıqla qarışıq salanlardır.

***İnam Hacıyev***

# Fransa Senatından təxribat - beynəlxalq hüquqa hörmətsizlik




### Fransada ağıllı adam bu qədər azdır? Yoxsa Senat saxta yolla seçilib?

Fransanın rəsmi olaraq tanıdığı başqa bir dövlətin ərazi bütövlüyünü pozmağa cəhd, bu niyyətlə hakimiyyətin fəaliyyətə keçməsinə çağırış edilməsi - bütün bunları Fransa Senatı edib. 305 senator qondarma qurumun "tanınması" ilə bağlı qətnamənin lehinə səs verib. Yalnız bir nəfər buna qarşı çıxıb.

Keçmişinin heç də hamısı qara səhifələrdən ibarət olmayan Fransa bu 305 senatorun ümidinə qalıb? Bəs seçicilər niyə seçdiklərinin qanunu pozmasına reaksiya vermir?

Noyabrın 18-də Fransa Senatına erməni diasporunun və lobbisinin təsiri altında olan bir qrup senator tərəfindən qondarma "Dağlıq Qarabağ Respublikasının tanınmasının zəruriliyinə dair" 145 nömrəli qətnamə layihəsi təqdim edilib, layihə cəmi bir neçə gün sonra - noyabrın 25-də təcili formada Senat tərəfindən müzakirəyə çıxarılıb və qəbul olunub.

Fransa Senatının qəbul etdiyi qətnamə sənədinin mətnindən də aydın olur ki, senatorları Dağlıq Qarabağın erməni əhalisinin taleyindən daha çox Türkiyənin və Azərbaycanın getdikcə güclənməsi, sarsılmaz birlik nümayiş etdirməsi narahat edir. Dağlıq Qarabağ münaqişəsinin tərəfləri Ermənistan və Azərbaycan olsa da, Türkiyənin adı qətnamədə daha çox çəkilir.

Senat bu yolla türkə, müsəlmanlara qarşı düşmənliyini gizlədə bilmir. Birinci Dünya savaşı illərində, sonrakı dövrdə Afrikada Türkiyədən aldığı ədalətli cavabların heyfini bu kağızla çıxmağa səy edir.

Fransa Senatında qondarma rejimlə "diplomatik münasibətlərin qurulması" nəzərdə tutan "qətnamə" layihəsinin müzakirəsi fikir mübadiləsindən daha çox 12 senatorun qərəzli, reallıqdan uzaq, birtərəfli çıxışı ilə tarixə düşdü.

Çıxışlardan aydın oldu ki, Fransa Senatının bir çox üzvünün müharibənin başa çatmasından, tərəflər arasında razılıq əldə edilməsindən xəbəri belə yoxdur. Bəzi senatorların militarist bəyanatlarını başqa cür izah etmək mümkün deyil. Məsələn, senator Stefan Ravie deyib ki, Fransadakı erməni gənclər vətənlərinə dönərək vuruşmaq istəyirlər, onların yolu açılmalıdır, Fransa QHT-ləri bu işdə onlara yardımçı olmalıdır.

Dağlıq Qarabağ münaqişəsinin detalları haqqında heç bir təsəvvürü olmayan, münaqişənin hazırkı mərhələsindən xəbərsiz olan, hətta çıxışları belə dinləməyən senatorlar səsvermədə fəal iştirak ediblər. Bu, açıq şəkildə əvvəlcədən planlaşdırılmış təxribatdır.

Həmin senatorlar Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Qarabağın harada yerləşdiyindən, tarixindən belə xəbərsizdirlər.

Layihənin ideya müəllifləri ermənilərin Fransada kompakt yaşadığı regionlardan olan senatorlardır. Həm sənədin müəlliflərini, həm də ona səs verənləri daha çox qarşıdan gələn seçkilərdə Fransa ermənilərinin səsləri və erməni lobbisinin dəstəyi maraqlandırır.

Səsə görə öz dövlətinin maraqlarını satan senatora ağıllı demək olarmı?! Bəs senatorlar dövlətin təhlükəsizliyi, milli maraqları, ölkənin erməni olmayan müsəlman vətəndaşlarının azadlığını niyə nəzərə almırlar? Fransanın ayağı büdrəsə, ilk zərbəni onlara elə bu erməni lobbisi vuracaq. Ermənilərin böhranlı vəziyyətlərdə böyük dövlətlərə vurduqları zərbəyə aid tarixdə çoxlu faktlar var. Görünür, 305-lik hələ qəflət yuxusundan oyanmayıb.

Əlbəttə, Fransa dövlətinin xarici siyasətini Senat yox, hökumət müəyyən edir. Senatın qərarları isə tövsiyə xarakteri daşıyır. Sənədin hüquqi qüvvəsi olmasa da, siyasi anlamı vardır. Senatın belə bir qətnamə qəbul etməsi, Azərbaycanla ikitərəfli münasibətlərə ciddi xələl gətirməklə yanaşı, özünü demokratik dəyərlərin müdafiəçisi elan edən Fransanın tarixinə qara səhifə kimi həkk olur. Onlar münaqişəli məsələlərdə dövlətlərinin tutacağı neytral mövqeyin üzərinə kölgə saldılar. Vasitəçi mandatı daşıyan bir ölkənin belə bir qətnamə ilə çıxış etməsi ölkənin bitərəfliyini ciddi şübhə altına alır. Bu həmçinin Azərbaycan ictimaiyyətində Fransanın ədalətli vasitəçi olmadığı rəyini formalaşdırdı.

Fransanın Xarici İşlər Nazirliyi yanında parlament məsələləri üzrə dövlət katibi Jan Batist Löman da sənədin Fransanın dövlət mənafeyinə, ATƏT-in Minsk qrupunun həmsədri kimi mandatına uyğun olmadığını etiraf edib.

Azərbaycan Respublikasının Fransadakı səfiri qətnamənin səsverməsindən bir gün öncə Senatın dinləmə prosedurlarına uyğun olaraq, Senat üzvləri qarşısında çıxış edib və qətnamə təklifi ilə bağlı, burada əks olunan birtərəfli və həqiqətə uyğun olmayan məqamlarla bağlı ətraflı məlumat təqdim edib. Buna rəğmən, Senat tərəfindən tamamilə qərəzli qətnamənin qəbul edilməsi, yalnız təxribat kimi qiymətləndirilə bilər.

Rəsmi Bakının bildirdiyi kimi Fransa siyasi dairələrinin ənənəvi Ermənistan təəssübkeşliyinin növbəti təzahürü olan bu qətnamə Azərbaycan üçün heç bir əhəmiyyət kəsb etmir. Bu, adi kağız parçasından başqa bir şey deyil. Heç bir qüvvə, o cümlədən Fransa Senatı Azərbaycan Ordusunun öz ərazilərindən çıxarılmasını tələb edə bilməz.

Fransa Senatı Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğal olunması, mülki əhalinin qətlə yetirilməsi, işğalçı dövlətin torpaqlarımızda etnik təmizləmə, ekoloji terror, qeyri-qanuni məskunlaşma və qanunsuz iqtisadi fəaliyyətlər aparmasına qarşı 30 il susqun mövqe nümayiş etdirib.

Senatın Ermənistan silahlı qüvvələri sıralarında Fransa vətəndaşları olan muzdluların Azərbaycan ərazilərində döyüşlərdə iştirak etməsinə heç bir münasibət bildirməməsi suallar doğurur.

Fransa Senatı Ermənistan tərəfindən çox sayda mülki əhalisi qətlə yetirilmiş, kəndləri, qəsəbələri və şəhərləri raket atəşinə tutulmuş Azərbaycanı vicdansızcasına ittiham edir. Bu Senat Ermənistanın Gəncə, Tərtər, Goranboy, Ağcabədi, Bərdə, Mingəçevirdə dinc əhalini raket atəşinə tutmasına münasibət bildirməyib.

Bu qətnamənin qəbulu Fransa siyasəti və parlamentarizmi üçün olduqca utancverici bir addımdır. Qətnamənin mətnində münaqişənin bütün tarixi, siyasi və hüquqi aspektləri təhrif edilir.

Fransanın da üzv olduğu BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından çıxmasına dair 4 qətnamə qəbul edib. Azərbaycan bu qətnamədən irəli gələn vəzifəsini icra edib. Ona görə də Fransa hakimiyyəti Senatın bu qətnaməsini qınayan bəyanatla çıxış edib, Azərbaycanın ərazi bütövlüyünə dəstəyini açıq şəkildə ifadə etməlidir. Bu halda Fransa beynəlxalq hüquqa və münasibətlərə hörmət göstərmiş olar.

***Newtimes.az***
***Sədrəddin İsmayılov***

# Artur Vanesyan: "Paşinyanın istefası ləyaqətimizin qorunması deməkdir"



Paşinyanın istefası bizə ləyaqətimizi qorumağa şans verməkdeməkdir. SİA Ermənistana məxsus hayeli.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, "İndependent" Ermənistanda Nikol Paşinyanın istefasını tələb edən aksiyalar barədə məqalə dərc edib və bu haqda Artur Vanesyanın açıqlamasını da yayımlayıb.

Nəşrdə qeyd olunduğu kimi, Ermənistanın paytaxtında minlərlə etirazçı postsovet ölkəsinin baş nazirinə qonşu Azərbaycanla sülh sazişi ilə əlaqədar istefa etməsi üçün təzyiq göstərməyə davam edir. Həmçinin, nəzərə çatdırılır ki, Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru və müxalif "Ayrenik" partiyasının lideri Artur Vanesyan qəzetə açıqlamasında müxalifətin barışıq müqaviləsini ləğv etmək istəmədiyini söyləyib.

"Mövcud hökumət tamamilə uğursuz oldu. Bu hakimiyyət siyasi meydanı dərhal tərk etməli, digər siyasi qüvvələrin vəziyyəti heç olmasa yaxşılaşdırmağa çalışmasına icazə verməlidir. Paşinyanın istefası bizə ləyaqətimizi qorumağımıza imkan verəcək", deyə Vanesyan bildirib.

# Ara, Ayvazyan, get təzədən gəl..!

## Və ya Ermənistanın yeni XİN rəhbərinin köhnəlmiş sərsəmləmələri



***Azərbaycan, Rusiya və Ermənistan tərəfindən imzalanmış üçtərəfli bəyannamədən sonra 44 günlük müharibəyə son qoyuldu və atəşkəs əldə edildi. Bizim üçün - Azərbaycan dövləti və xalqı üçün Vətən müharibəsi kimi tariximizə yazılan zəfər yürüşümüz 30 il işğal altında qalan torpaqlarımızın azad olunması ilə nəticəsini tapdı. Məhz bundan sonrakı müəyyən proseslərin diplomatiya xarakterinə keçid alması qarşıda dayanan digər məqsədlərimizi reallaşdırmağa imkanlar yaradır.***

Lakin bütün bunlara baxmayaraq, yəni ermənilərin aldıqları sarsıdıcı, rüsvayçı kapitulyasiya aktına imza atmalarına rəğmən, onların hələ də köhnə havaları ilə oynamaları, sözün əsl mənasında, könül bulandırır. Daha dəqiq desək, üstünlük və söz qalib tərəfdə olur və bu, yazılmamış, yaxud yazılmış qanunlarda da öz əksini tapır. Bu qanunlarda məğlubun qalibin şərtlərini icra etməkdən də başqa yolu qalmır. Amma nəzərə alarsaq ki, bizim düşmənlərimiz ermənilərdir və onlarda gerçək insana aid ola biləcək şərəf, ləyaqət, mənəviyyat deyilən heç nə yoxdursa, demək ki, belə bir mənfur düşmənə daha ağır cavabın verilməsi (istər diplomatiyada, istərsə də cəbhədə) haqqı yenə də bizdə - Azərbaycan dövlətində və xalqında qalır!

### Ayvazyan münaqişənin bitmədiyini deməklə müharibə istəyir?

Məsələ ondadır ki, Ermənistanın yeni təyin olunmuş xarici işlər naziri Ara Ayvazyan erməni KİV-nə verdiyi müsahibəsində irəli sürdüyü sərsəm fikir və bəyanları ilə yenidən müharibənin alovlanmasına yönələ biləcək addıma gedib. SİA xəbər verir ki, "Armenpress"ə müsahibəsində sözügedən bəyannamə ətrafında var-gəl edən Ayvazyan Azərbaycan rəhbərliyinin guya imzalanmış sənədin mahiyyətini sona qədər anlamadığını öz axmaq fikirləri ilə şərh edib. O, hətta bir az da irəliyə gedərək, Qarabağ münaqişəsinin birdəfəlik həll olunmamasına qondarma "əsas" da gətirib. Sən demə, "artsaxın" (?!) statusunun müəyyən olunmayacağı halda münaqişə qalmaqda davam edirmiş və s. Bu zaman sual yaranır: onda Ermənistanın baş naziri Nikol Paşinyan nəyə görə həmin sənədi müdafiə nazirliyinin bunkerindəki ayaq yolunda imzaladı? Nəyə görə o atəşin dayandırılması və qarşıya qoyulan tələblərə riayət ediləcəyi ilə bağlı sənədin qüvvəyə minməsinə razı oldu? Məgər Azərbaycanın müzəffər Ordusu Şuşanı azad etdikdən sonra, yəni Xankəndinin astanasında dayananda, hətta şəhərin bəzi giriş nöqtələrinə nəzarəti ələ keçirəndə İrəvana qaçmış "artsax" rəhbərliyi, sözün əsl mənasında, tualet qarşısında növbəyə düzülməmişdilərmi?! Onların bədnam Araik Arutunyanı Ermənistanın baş nazirindən dərhal hərbi əməliyyatların dayandırılmasını istəməmişdimi?! İndi nə oldu, yenidən münaqişənin həll olunmadığını deməklə müharibəmi istəyirlər?! Əgər elədirsə, bu zaman indidən özlərinin ölüm fərmanlarına imza atsınlar!

### Bəs ATƏT-in Minsk qrupu 30 il harada idi?!

Məlumdur ki, Azərbaycan Prezidenti İlham Əliyev bütün çıxışlarında status məsələsinin mövcud olmadığını bəyan edib və növbəti proseslərin gedişini də şərh edərək, bölgədə sülhün bərqərar olması üçün bütün müvafiq addımların atılacağını da vurğulayıb. Söz yox ki, bu məsələ imzalanmış üçtərəfli bəyannamədə də öz əksini tapıb və bütün bunlardan sonra erməni XİN rəhbərinin bu qədər sərsəmcəsinə fikirlər irəli sürməsi çox yəqin ki, onun və onun baş nazirinin bir yerlərini qaşındırır...

Bu gün ATƏT-in Minsk qrupunun "statusun" müəyyənləşməsi üçün növbəti danışıqlar prosesinə razı olduğunu həyasızcasına bəyan edən Ara Ayvazyan nəyə görə 30 il boyunca bu qurumun heç nə edə bilmədiyini də etiraf etmir? Harada idi bu illər boyu həmin qurumun başbilənləri? Yaxud, Minsk qrupunun həmsədr ölkəsi olmasına rəğmən, Fransamı Qarabağdakı "statusu" müəyyən edəcək? Çaşmasınlar, çünki fransız xarici siyasətinin son vaxtlar, elə 30 il (!!!) Azərbaycana qarşı nə qədər "ədalətli mövqe" sərgilədiklərini də unutmamışıq!

Artıq Azərbaycan üçün bu "qrupun" heç bir əhəmiyyəti yoxdur, çünki dövlət və xalq olaraq bizlər BMT-nin dörd qətnaməsini icra etmişik. Bununla razı olmayanlar isə dövlət başçımızın vurğuladığı kimi, burunlarını onlara aid olmayan işlərə qatmasınlar!

### Bədbəxt və Allahın xoşu gəlməyən "millət"...

Beləliklə, Ara Ayvazyan bəyan edib ki, Qarabağ münaqişəsi "artsaxın" statusunun müəyyən olunmayacağı vaxta qədər həll olunmamış qalacaq - yəni onlar yenidən, açıq-aşkar müharibə istəyirlər və bu vasitə ilə əslində erməni xalqının da, Ermənistanın da xəritədən silinməsinə şərait yaratmış olurlar. Halbuki..!

Halbuki, Azərbaycan Prezidenti Qarabağda yaşayan ermənilərə yaşamaları üçün bütün yüksək şəraitlərin, imkanların veriləcəyini vurğulayıb. Hətta elə bir şəraitin ki, onlar Azərbaycan vətəndaşları olaraq Ermənistan vətəndaşlarından qat-qat yaxşı yaşayacaqlar. Amma göründüyü kimi, erməni xəbisliyi, erməni şərəfsizliyi və erməni sərsəmliyi bütün bu kimi vədləri qəbul etməyə imkan vermir. Bunda isə günahı Azərbaycanda deyil, məhz və məhz ermənilərin özlərinə axtarmaq lazımdır. Azərbaycana gəldikdə isə, 30 il boyunca doğma yurd-yuvalarından didərgin düşmüş insanlarımız öz evlərinə-ocaqlarına geri dönəcəklər. O yerlərə ki, məhz ermənilər ötən müddət ərzində dağıdıblar, talan ediblər, viranəliyə çeviriblər.

Bu gün Ermənistan rəhbərliyi qarşılarına qoyulacaq milyardlarla dollar təzminatın ödənilməsi dərdini çəkmələri yerinə, hələ də onlara məxsus olmayan, bundan sonra da olmayacaq "artsaxları" ətrafında baş sındırırlar, "15 min artsaxlı erməninin tarixi vətənlərində" (???!!!) azərbaycanlılarsız (!!!) yaşamaq "hüquqlarından", Qarabağın Azərbaycanın yuridiksiyası altında qala bilməməsindən, "artsaxın" "geopolitoloji xəritədəki reallığına görə" (???!!!) dünya ölkələri tərəfindən tanınmasından dəm vururlar - dövlət səviyyəsində, rəsmi! Bədbəxt və Allahın xoşu gəlməyən "millət"...

**Rövşən RƏSULOV**

**P.S.** *Belə yerdə deyərlər ki, Ara, Ayvazyan, get təzədən gəl. Yox, bunu da istəmirsənsə, onda daha ağır cavabı almağa hazırlaşın!*



## Ermənistanda siyasi çöküş davam edir - Paşinyan gedir?

Ermənistanın baş naziri Nikol Paşinyanın ölkə daxilində reytinqi 40 faizdən aşağı düşüb. SİA xəbər verir ki, 2020-ci ilin iyul ayında xalqın 85%-i tərəfindən dəstəklənən baş nazirin dekabr ayına olan reytinqi 38% təşkil edir. Ermənilərin təqribən yarısı Paşinyanın istefaya getməli olduğuna inanır. Bunu "Gallup" Beynəlxalq Birliyinin Ermənistan nümayəndəliyinin direktoru Aram Navasardyan "Gallup"un son sorğusunun nəticələrini oxuduğu mətbuat konfransında açıqlayıb.

O bildirib ki, anket 25 noyabr - 2 dekabr tarixləri arasında telefon vasitəsilə aparılıb və Ermənistanın bütün şəhər və rayonlarını əhatə edib: "Nikol Paşinyanın indi nə edəcəyini soruşduqda, respondentlərin 38% -i baş nazirin vəzifəsini davam etdirməli olduğunu, 45% -i istefa verməli olduğuna inandığını söyləyib".

Navasardyan onu da qeyd edib ki, hazırkı baş nazirin reytinqi iki hadisədən sonra - 26 oktyabrda canlı yayımda Ermənistanın güzəştə getməli və 9 noyabrda Qarabağla bağlı bir bəyanat imzalamalı olduğunu söylədikdən sonra düşüb. Respondentlərin 42% -i baş nazirin 6 aylıq böhran əleyhinə proqramı ilə tanış olduqlarını, yarısından çoxu (53%) onu oxumadığını söyləyib. 41% -i erkən seçkilərə ehtiyac görməyib. Respondentlərin 46% -i seçkilərə ehtiyac olduğunu bildirib. Respondentlərin yarısından çoxu - 56%-i Qarabağdakı müharibədən sonra Ermənistanda özlərini təhlükəsiz hiss etmədiklərini qeyd edib.

**Aysel Məmmədova**



## Murdar əskiyə od düşməz...

**RƏFİQƏ**

Belə bir atalar sözü var: "Murdar əskiyə od düşməz", ancaq Azərbaycanı dövlətinin, güclü ordusunun qəhrəman əsgər, zabitlərinin və xalqının birliyi ilə bu murdar, iyrənc, vəhşi insan cildində olan qorxaq gör eşənlərə elə od vurdular ki...İt kimi elə qovdular ki...Hələ bu azmış kimi küçə mikrobu, xəstə, 5 qramdan sonra gorəşənlər kimi torpaqda eşələnən başçıları Paşinyanın üstünə bədbəxt erməni xalqı o qədər tüpürdülər də hələ də nə ayıla bilir, yerə girər. Atalar demişkən "Yer yarılıb yerə girmir".

O kəslər yerə girər ki, pak olsun, ancaq belə murdarları o pak torpaq niyə də qəbul etməlidir?. O kəs yerə girir ki, insan olsun, o kəs yerə girər ki, abır olsun, həyası olsun. Vəhşi, abırsız, insanlıqdan uzaq, yer üzünün zilləti, erməni deyilən vəhşi yanların donuz kimi çamurlarda eşələnə-eşələnə qalan murdarı torpaq da yaxın qoymur. Elə Azərbaycan haqq yolunda apardığı mübarizədə bu murdarları iti qovan kimi qova-qova gorbagor edərək cəhənnəmə vasil edərək leşlərinə sahib çıxan belə olmadısa, o pak torpaqlar təmihlənməli idi, təmizləndi də. Murdar oldular, gorbagor oldular, iylənmiş cəmdəklərinə yaxın duran da olmadı, qəbul etmədilər bu murdarları. Belə də olmalı idi. Allahın evini murdarlayanlar hələ bundan da çox pis günlər görəcəklər. Lənətlər yağdıran da özləridir, lənətlənən də...

Bu qədər zülüm olmaz. Ancaq unudurlar ki, qisas qiyamətə qalmaz. Zəhra, Fariz, Aygün, Nigar, Bahar, Şəhriyar, Sevil, Hüseyn, Mədinə, Xədicə, Məryəm... Kimdir bunlar? Nədir onların günahı? Niyə bu günə kimi, tarixi abidələrimizi dağıdan, müqəddəs dini ocaqlarımızı təhqir edən Ermənistanın barbarlıq və vandalizm əməllərinə görən gözlər kor olur?. Görəsən bunları görə-görə kor, eşidə-eşidə kar olanlar niyə niyə susurlar?. Amma "qisas qiyamətə qalmaz", deyir, atalar. Qalmayacaq və qalmadı da! Bu qisası uşaqlarımızın gələcəyinə buraxmadan, müqəddəs dini ocaqlarımızın, abidələrimizin, kəndlərimizin, bötövlükdə bütün torpaqlarımızda etdikləri vəhşiliklərin nişanələrini yeni həyata qovuşdurmadı, vəhşi, işğalçı, terrorçudan azad olunan torpaqlarımızda elə ilk gündən abadlıq, uğurlu işlər görülməyə başladı.

Biz qisasımızı aldıq. Ancaq əsl Azərbaycanlı kimi, Türkə yaraşan bir şəkildə... Əli yalın, silahsız xalqı, uşaqları, qadınları nişan almadan, özgəsinin torpağında gözü olmadan, öz torpaqlarımızda öz torpaqlarımızın, ərazi bütövlüyümüzün, öz haqqımızın, ədalətimizin bərpası uğrunda müqəddəs yolda inamla, qətiyyətlə irəliləyərək döyüş meydanında döyüşdük, məhz döyüş meydanında layiqli cavablarını verərək, 30 ildən bəri zorla işğal altında tutduqları torpaqlarımızın hər qarışından onları qovaraq, özü də iti qovan kimi qovaraq, həmin torpaqlarda üçrəngli bayraqlarımızı sancaraq alırıq!

"...Erməni əsgəri ölmək istəmirsə, rədd olub getsin Azərbaycan torpağından!..". Azərbaycan Prezidentinin böyük məna yükü olan bu sözləri xain və məkrli, hiyləgər düşmənin dinc əhalinin, günahsız insanların başına yağdırdığı bombalardan daha güclü, daha təsirlidir. Ancaq azğın, quldur erməni çaqqal və çamurda eşələnən donuzları bunu anlamıdı, anlamadıqlarını da göstərdilər. Və onları anlatmaq üçün Ali Baş Komandanımızın dediyi kimi "Bizim yumruğumuz təkcə düşmənin başını əzən yumruq deyil, bu yumruq həm də bizim möhkəm birliyimizdir!". Bəli, bu möhtəşəm yumruğun hesabınadır ki, hər gün cəbhədən xoş xəbərlər gəlir, işğaldan azad edilən torpaqlarımıza sancılan bayraqların sayı artır. Hiyləgər düşmən onu da unutmasın ki, dünya yarananda həmişə xeyir şərə qalib gəlib. Qisas qiyamətə qalmaz, necə ki, qalmır: Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusu, igid əsgərlərimiz düşməndən qisası başqa yerdə yox, məhz döyüş meydanında alır. Azərbaycan əsgərinin cəbhədəki bu irəliləyişi həm də onun erməni təcavüzünə tuş gəlmiş öz doğma ocağına, doğma torpağına, doğma yurd-yuvasına qayıdışıdır. Çünki əsgərlərimizin ən böyük, ən güclü silahı Vətən sevgisidir, xalqın, ordunun Ali Baş Komandan ətrafında sıx birləşməsidir.

Biz inanırıq ki, bu möhtəşəm birlik tezliklə düşmən üzərində qələbəmizi təmin edəcək. Çünki hamımız Prezidentimizin dediyi böyük bir həqiqət üzərində köklənmişik: Qarabağ Azərbaycandır! Və bu gün bir əsrə bərabər olan döyüşlərin 44 günündə Azərbaycanımızın qələbə tarixini, ən şanlı, ən şərəfli, ən qürurlu səhifələrini yazaraq 30 illik torpaq həsrətinə son qoyan, qələbə zəfərlərinə imza atan Ali Baş Komandanımız, Qalib Liderimiz, Prezidentimiz İlham Əliyevə, Güclü, Müzəffər Ordumuza, rəşadətli, igid əsgər və zabitlərimizə borcluyuq!.

Çünki Qarabağ Azərbaycandır!

# Qarabağ müharibəsinin nəticələri nə vəd edir?

**Sankt-Peterburq Dövlət Universitetinin “Postsovet məkanında beynəlxalq münasibətlər” kafedrasının professoru, tarix elmləri doktoru Niyazi Niyazov pravda.ru-nun studiyasında Qarabağ müharibəsi və sülh prosesi ilə bağlı fikirlərini bölüşüb. Müsahibəni oxucularımıza təqdim edirik.**




**- Bu müharibədə niyə Azərbaycan qalib gəldi?**

- Azərbaycan lap başdan bəyan etmişdi ki, münaqişənin sülh yolu ilə həlli üçün göstərdiyi səylər problemin həllinə gətirib çıxarmazsa, müharibə qaçılmaz olacaqdır. Tərəflər bir neçə dəfə, o cümlədən Rusiyanın vasitəçiliyi ilə, münaqişənin həlli üçün məşhur “Kazan formulu”, “Lavrov planı” ilə bağlı razılığa gəlməyə yaxın idilər. Lakin Paşinyan Ermənistanda hakimiyyətə gəldikdən sonra bütün danışıqlar prosesi məhv edildi. Deyək ki, sonda onun qeyri-uzaqgörən və təxribat xarakterli açıqlamaları Qarabağda hərbi əməliyyatların yenidən başlamasına zəmin yaratdı.

Bu vaxta qədər Ermənistan, Fransa, Rusiya, Amerikadan olan bir sıra hərbi mütəxəssislərin dediklərinin əksinə olaraq, Azərbaycan ordusu bu müharibəyə çoxdan və diqqətlə hazırlaşırdı. Müasir döyüş sistemlərinə, ordunu tamamilə yeni yüksək texnoloji silahlarla təchiz edilməsinə üstünlük verildi, hansı ki, onların bəziləri dünyanın heç bir ordusunda yoxdur. Çoxlu sayda xüsusi təyinatlı qüvvələrin hərtərəfli hazırlığı sayəsində Azərbaycan ordusu erməni tərəfinin bütün bu işğal illərində qurduğu güclü müdafiə sistemini- tərifli “Ohanyan” xəttini qırmağa və əməliyyatı uğurla həyata keçirməyə müvəffəq oldu. Bunun nəticəsində, faktiki olaraq, nəinki Qarabağda yerləşdirilmiş, həm də Ermənistanın özündən oraya köçürülmüş erməni silahlı qüvvələrinin əhəmiyyətli bir hissəsi məğlub oldu.

Bunun bir neçə səbəb var, 2 əsasını ayırmaq istərdim:

1. İqtisadiyyatı müharibəyə hazırlamaq. Azərbaycan yalnız neft ehtiyatlarının satışı ilə məşğul olmamış, həm də iqtisadiyyatın bütün sistemini məqsədyönlü şəkildə təkmilləşdirmişdir. Əlbətdə qüsurlar var idi. İlham Əliyev özü bunu bildirdi;

2. Öz silahlı qüvvələrinin inkişafına və yalnız silahların alınmasına deyil, həm də öz müəssisələrində bir çox silah növünün istehsalına, öz hərbi-sənaye kompleksinin yaradılmasına ciddi diqqət verdi.

Və bu vəziyyətdə Azərbaycan üçün ən vacib şey, hərbi əməkdaşlıq sahəsində özünə ciddi müttəfiqlər tapmağı bacarması və bunların arasında Azərbaycan ordusunun əsas silah təchizatçısı olan Rusiyanın da olması idi.

Bundan başqa, Belarusiya və İsraildən də müəyyən silah texnika alındı. İsrail müasir pilotsuz təyyarələrin tədarükünün əsas mənbəyinə çevrilib.

Sonra türklər Azərbaycan ordusu üçün silah təchizatçılarından biri oldular. Bunlar əsasən, polis qüvvələri üçün- ilk növbədə yüngül zirehli nəqliyyat vasitələridir. Və bu münaqişənin isti mərhələsində də fəal iştirak edən “Bayraktar TB2” dronları.

**- Sizin nöqteyi nəzərinizdə Türkiyənin iştirakı, informasiya sahəsindəki dəstəyi burada nə kimi rol oynadı?**

- Türkiyənin dəstəyi həmişə olub. Başqa bir məsələdir ki, əvvəllər Türkiyə NATO-nun çox itaətkar üzvü kimi ondan güclü bir şəkildə asılı idi və Qərb tərəfdarı idi, Avropa İttifaqına daxil olmaq üçün hər vasitə ilə Vaşinqtondan, Brüsseldən gələn bütün məzəmmətləri dinləməyə hazır idi- bu səbəbdən Türkiyə faktiki olaraq Azərbaycana kömək etmədi.

Məlumdur ki, 1-ci Qarabağ müharibəsi zamanı Türkiyə Brüsselin narazılığından qorxduğu üçün Azərbaycana bir dənə də olsun hərbi texnika satmadı, hətta kiçik silahlar da satmadı. Zamanla, Türkiyənin öz iqtisadiyyatında ciddi bir modernizasiya həyata keçirməsindən sonra, xüsusilə Ərdoğanın partiyası hakimiyyətə gəldikdən sonra daha müstəqil bir yol tutmağa başladı. Bu kursun istiqamətlərindən biri, əlbəttə ki, münasibətlərdə eniş-yoxuş yaşanan Rusiya ilə aktiv bir yaxınlaşma idi. Bundan sonra Türkiyə Qarabağ münaqişəsində daha fəal mövqe tutdu və Azərbaycana dəstək verdi.

Əvvəllər isə, bu, müxtəlif beynəlxalq təşkilatlarda siyasi dəstəkdən ibarət idi. İqtisadi dəstək belə çox deyildi, çünki bu çoxlarına paradoksal görünə bilər- Azərbaycanın Türkiyədəki investisiyaları Türkiyənin Azərbaycandakı investisiyalarından qat-qat çoxdur. Bu gün Azərbaycanın qızıl-valyuta ehtiyatları təqribən 50 milyard dollar olaraq qiymətləndirilir, 10 milyonluq bir əhali üçün bu böyük bir rəqəmdir, bir çox inkişaf etmiş Avropa ölkələrində belə bu həcmdə qızıl-valyuta ehtiyatları yoxdur.

Buna görə də, bölgədə fəal inkişaf edən enerji, nəqliyyat və logistika layihələrinin icrasında da maraqlı olan Türkiyə artıq Azərbaycana hərbi-texniki yardım göstərməyə və haqqında danışdığım pilotsuz təyyarələr verməyə başladı.

Bundan əvvəl Türkiyənin hərbi yardımı əsasən zabitlər və xüsusi təyinatlıların təhsili ilə məhdudlaşırdı. Üstəlik, bu təlim hətta Azərbaycan ərazisində də aparılmamışdı; bir çox azərbaycanlı zabitlər və əsgərlər Türkiyənin müvafiq təhsil müəssisələrində oxudular. Bununla yanaşı, Rusiya və Amerika da daxil olmaqla digər ölkələrin hərbi təhsil müəssisələrində də eyni şeyi etdilər. Bu, məqsədli hazırlıq idi.

**- Tərəfləri sülhə nə məcbur etdi?**

- Paşinyan, döyüş əməliyyatları başlayanda, bir neçə dəfə Azərbaycan tərəfdən prezident Putin vasitəsilə ona səslənən təkliflərdə, Ermənistanın həqiqətən də BMT-nin 4 məşhur qətnaməsinin və Lavrovun planının yerinə yetirilməsinə razı olduğu təqdirdə Azərbaycanın hərbi əməliyyatları dayandırmağa hazır olduğu barədə təkliflər aldı. Lakin Paşinyan, görünür, hər dəfə erməni ordusunun Azərbaycan qoşunlarının hücumunu dəf edə biləcəyinə əmin idi. Heç kim Azərbaycan ordusunun bu qədər qısa müddətdə bu cür uğurlara imza atacağını gözləmirdi, çünki bir neçə qatdan ibarət müdafiə xətti 27 ildir hazırlanmış və möhkəmləndirilmişdi, minalanmış ərazilərlə təmin edilmişdi və s.

Erməni siyasətçilər, görünür müharibənin uzanan bir xarakter alacağını, Azərbaycan ordusunun irəliləməsinin minimal olacağını və yenə də danışıqlarda bazarlıq etmək mümkün olacağını və bu bazarlığın, məsələn, Qarabağın dağlıq hissəsinin Azərbaycandan ayrılması da daxil olmaqla, Ermənistanın maraqlarını qorumağa kömək edəcəyini ümid edirdilər. Bu hesablamaları Azərbaycan ordusu pozdu və nəticədə, əlbəttə ki, Putin de-fakto Ermənistana seçim təqdim etdi: ya bölgədəki qüvvələrinizin tam bir məğlubiyyəti, ya da həqiqi təslim olmaq üçün danışığa gedin, əsgər və zabitlərinizin həyatını xilas edin, qalan ordu hissələrini qoruyun. Və erməni tərəfi bu sülh şərtləri ilə razılaşmaq məcburiyyətində qaldı.

**- Əliyevin sülh müqaviləsi bağlamamaq üçün kozırı var idi, axı Şuşa praktik olaraq alındı, yalnız Stepanakerti (Xankəndired) almaq qaldı və sonra ermənilər dağıldı, xüsusən də Ermənistan, başa düşdüyüm kimi, qoşunlarını göndərməyib, yalnız könüllülər Qarabağda döyüşdü?**

- “Dağlıq Qarabağ ordusu” deyilən ordu əslində öz döyüş vahidlərinə sahib 2 ordu, İrəvanın ümumi komandanlığı altında bir struktur təşkilatı idi. Əsl bir ordu. Foto və videolarda görünən Ermənistan, o cümlədən Qarabağ könüllüləri- bu təbliğat və reklam məqsədli filmdir. Bu, ordunun məğlub olduğu müharibənin son mərhələsidir.

Ermənistanın döyüş birləşmələrini Qarabağa köçürdüyünə dair bir çox dəlil var, bu birləşmələr, Azərbaycan ordusunun artilleriyası və pilotsuz uçuş aparatları tərəfindən çox sürətlə məhv edildi. Burada, bir nümunə olaraq, internetdə bir vaxtlar Ermənistandan Rusiyada keçirilən məşhur tank marafonuna qatılan tanklardan birinin fotosu var. Sonra Ermənistan onu da Qarabağdakı hərbi əməliyyatlarda iştirak etmək üçün göndərdi. Orada Azərbaycan qoşunları tərəfindən sağ-salamat ələ keçirildi.

Bu cür ələ keçirilən hərbi qənimətin sayı çoxdur, onlarda “Dağlıq Qarabağ” yox, Ermənistan Respublikasının silahlı qüvvələrinin nişanları var. Öldürülmüş erməni əsgər və zabitlərinin siyahılarına baxsanız, bu insanların böyük payı Ermənistan sakinləridir, bu da bir daha buradakı döyüş hissələrinin Ermənistandan köçürülməsinin həyata keçirildiyini göstərir.

Anlaşılmalıdır ki, Şuşa ələ keçirildikdə, Azərbaycan artıq indi sülhməramlıların nəzarətində olan Laçın dəhlizini kəsmişdi və buradan dar bir dağ yolu ilə atəş içindən keçmək intihar olardı, istər hava müdafiə sistemi, istər tanklar və özüyeriyən artilleriya qurğuları üçün. Çünki pilotsuz təyyarələr ora tamamilə nəzarət edirdi.

İkinci yol- işğal qoşunlarının indi geri çəkildiyi Kəlbəcərdən olan yol da Azərbaycan ordusunun atəş nəzarəti altında idi. Qoşunların qalanını da Qarabağa göndərməklə, Ermənistan yalnız bir şeyə nail ola bilərdi- heç bir hərbi uğur qazanmadan bu müharibənin ocağına daha çox qurban atmağa.

**- Qarabağ döyüşlərində tam hərbi qələbənin Azərbaycan üçün sadəcə zaman məsələsi olduğu anda Prezident Əliyev niyə dayandı?**

- Hərbi qələbənin cazibəsi, əlbəttə, kifayət qədər güclü olur, amma populistlərdən fərqli olaraq, Əliyev güclü siyasətçidir, beynəlxalq ictimaiyyətin reaksiya variantlarını da hesablamışdı. Dağlıq Qarabağdan kənarda işğal olunmuş rayonların azad edilməsi davam edərkən vəziyyət eyni idi. Azərbaycan artıq formal olaraq keçmiş DQMV tərkibinə daxil olan əraziyə girməyə başlayanda vəziyyət fərqli idi. Hər şeydən əvvəl Azərbaycanın guya dinc erməni əhalisini məhv etdiyi haqda Qərbdən informasiya dalğasının başlayacağını, bunun ciddi bir mənfi reaksiya doğuracağını başa düşürdü. Belə olmasa da, Qərb bundan Azərbaycana siyasi təzyiq üçün istifadə edərdi. Əliyev bunu düzgün başa düşdü.

O, digər məsələləri də mükəmməl başa düşdü.

Əlbətdə ki, Qərbə qarşı mübarizədə Rusiyanı diplomatik sahədə dəstək verməyə çağırardı. Ancaq Rusiyanın qaynaqları sonsuz deyil və belə bir situasiyada təkcə bizə etibar etmək səhv olardı.*

Türkiyənin də Qərblə çox gərgin münasibətləri var.*

İqtisadi cəhətdən Azərbaycan Qərbə çox bağlıdır, çünki iri neft ticarəti var.*

Əsas məsələ qondarma “Dağlıq Qarabağ”ın gələcək gələcək statusu məsələsinin və öz müqəddəratını təyinetmə əsasında ikinci bir erməni dövlətinin yaradılması ilə bağlı məsələlərin aradan qaldırılmasıdır. Bütün bunları Əliyev müqavilə imzalanana qədər artıq həll etmişdi.

Bu işdə Putinlə yaxşı münasibətlərin də rol oynadığı aydındır. Şübhəsiz ki, Putin Əliyevdən məsələləri tam son məğlubiyyətə gətirməməsini istədi, çünki Rusiya nə Ermənistanı, nə də Azərbaycanı itirmək istəmir.

Üstəlik, sülhməramlıların gətirilməsi məsələsi- bir çoxu indi bu barədə danışmır- danışıqların başlanğıcından bəri davam edən bütün planlarda müzakirə olunurdu. Beləcə bütün müsbət və mənfi cəhətləri hesablayaraq Əliyev qərara gəldi ki, düşmən təslim olarsa, qoşunlarını o zamana qədər azad edilməmiş rayonlardan çıxararsa, o zaman sülhə razı olmaq olar. Və bununla özünə böyük bir üstünlük təmin etdi.

Əliyev Rusiyanın köməyi ilə regional iqtisadiyyat üçün yaxşı bir dəmir yolu bağlantısı açma fürsəti tapır və bir müddət sonra bu əlaqədə Rusiya və Türkiyənin iştirakı ilə bölgədə yaradılacaq ciddi iqtisadi əlaqələrin şahidi ola bilərik. Burada Azərbaycan birləşdirici, tranzit rolunu oynayacaqdır.

**- Gəlin burada statusdan danışaq. Statusun artıq həll olunduğunu dediniz. Onun çərçivəsi nədir?**

- İndi bir çərçivə yoxdur, 3 tərəfin imzaladığı sənəddə heç bir çərçivə, status yoxdur. Bəlkə də nə vaxtsa statusla bağlı bəzi müzakirələr olacaq, amma bunun reallaşması üçün Rusiyadan olan sülhməramlıların vasitəçiliyi ilə yalnız erməni qaçqınlarının yox, həm də bu bölgədə yaşamış etnik azərbaycanlı köçkünlərin Qarabağın dağlıq hissəsinə qaytarılması təmin olunacaq. Ancaq o zaman söhbət yalnız Azərbaycan daxilindəki statusdan gedəcək. İndi müzakirə üçün başqa bir seçim yoxdur. İndi söhbət Azərbaycanın ərazi bütövlüyünün əslində tam şəkildə bərpa edilməsindən gedir. Bəlkə də fiziki nəzarət hələlik ölkənin bütün əraziləri üzərində deyil, amma siyasi, diplomatik nəzarət Bakı tərəfindən tam təmin edilmişdir. Aydın məsələdir ki, vətəndaşlar Azərbaycan pasportlarını almalıdırlar, Əliyev bunları rədd etmir və hamısına deyir ki, getmək istəsən, çıxıb gedə bilərsən. Kim qalacaqsa, ona Azərbaycan pasportu qeyd-şərtsiz veriləcək.

***Tərcümə: Elçin Bayramlı***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

5 dekabr

## Serxio Ramos Makqreqorla döyüşmək istəyirSerxio Ramos Makqreqorla döyüşmək istəyir




***İspaniya millisinin və "Real Madrid" futbol klubunun kapitanı Serxio Ramos maraqlı hərəkətlə gündəmə gəlib. AZƏRTAC xəbər verir ki, futbolçu irlandiyalı döyüşçü Konor Makqreqoru duelə dəvət edib. Ramos "Instagram" səhifəsində idman zalından paylaşdığı videoda "Hazır olanda, Konor Makqreqor" yazıb.***

UFC versiyası üzrə iki çəki dərəcəsində sabiq dünya çempionunun cavabı da özünü çox gözlətməyib. Makqreqor "Hazır ol, qardaşım Serxio! Qarşıda böyük döyüş var", - deyə vurğulayıb. Qeyd edək ki, Konor Makqreqor növbəti döyüşünü 2021-ci il yanvarın 23-də Dastin Poryeyə qarşı keçirəcək.

# Robert Levandovski dünyanın ən yaxşı futbolçusu seçildi

***İdman jurnalistlərinin versiyasına əsasən dünyanın ən yaxşı futbolçusu müəyyənləşib. Bu barədə "Goal.pt" nəşri sorğu aparıb. Səsvermə nəticəsində Polşa yığmasının və Almaniyanın "Bavariya" klubunun futbolçusu Robert Levandovski 197 xalla bütün rəqiblərini qabaqlayıb.***



İngiltərənin "Mançester Siti" komandasında çıxış edən Belçika millisinin üzvü Kevin De Bruyne 68 xalla ikinci, İtaliyanın "Yuventus" klubunun portuqaliyalı hücumçusu Kriştiano Ronaldo isə 53 xalla üçüncü olub. İspaniyanın "Barselona" klubunun argentinalı ulduz futbolçusu Lionel Messi 45 xalla 4-cü yerlə kifayətlənib.

Səsvermədə azərbaycanlı jurnalist Rasim Mövsümzadə də iştirak edib. O, ilk üçlüyə "Bavariya"nın oyunçuları Robert Levandovski, Manuel Noyer və Serj Qnabrini, dördüncü yerə İngiltərənin "Liverpul" komandasından Sadio Maneni, beşinci pilləyə isə "Borussiya"dan (Dortmund) Erlinq Holandı layiq görüb.

## Bu dərman koronavirusun yayılmasını bloklayır




Alimlər koronavirusun ötürülməsini tez bir zamanda bloklayan vasitə tapıblar. Xezerxeber.az xəbər verir ki, bununla bağlı "Nature Microbiology" jurnalında məlumat yayılıb.

Qeyd olunub ki, ABŞ-ın Corciya Universitetinin mütəxəssisləri qripə qarşı effektiv olan virus əleyhinə 4482/EIDD-2801 və ya "Molnupiravir" preparatının SARS-CoV-2 virusuna təsirini analiz ediblər.

Heyvanlar üzərində laboratoriya tədqiqatlarının nəticəsində məlum olub ki, preparat xəstəliyin ilkin mərhələsində yüksək effektivlik göstərir. Dərman vasitəsi orqanizmdə COVID-19 infeksiyasının ağır dərəcəyə qədər inkişafına, virusun orqanizmdə uzun müddət qalmasına imkan vermir və ilk gündən başlayaraq onun ötürülməsinin qarşısını alır.

# Qış mövsümündə A, E və S vitamini ilə zəngin qidalar qəbul edilməlidir



Soyuq günlər yaxınlaşdıqca xəstəliklərdən qorunmaq üçün immuniteti gücləndirmək lazımdır. Bunun üçün A, E və S vitaminləri qəbul edilməsi faydalıdır. Bibər, ispanaq, limon və narıngi S vitamini ilə zəngindir. E vitamini isə daha çox yağlarda, o cümlədən balıq yağında və fındıq meyvəsində daha çox üstünlük təşkil edir.

AZƏRTAC xəbər verir ki, bu barədə həkim-diyetoloq Ləman Süleymanova deyib. Onun dediyinə görə, qış mövsümü zamanı balanslaşdırılmış qida qəbul edilməlidir. Əlbəttə ki, hər kəsin fərqli seçimi ola bilər, lakin səhər yeməyinin bir dilim qızardılmış tost çörək, yumurta, 4 zeytun, bir qədər pendir və ya kəsmikdən ibarət olması daha çox məsləhətdir. Xüsusilə qış mövsümündə orqanizm tələb etmədikdə də mümkün qədər çoxlu su, gün ərzində 10-14 stəkan içilməlidir.

"Qış fəslində Omeqa-9 yağından istifadə etmək tövsiyə olunur. Lakin pəhriz rejimində olanlar Omeqa-3 yağına üstünlük verməlidirlər. Naharda ət yeyilibsə, şam yeməyi zamanı balıq, toyuq, göbələk kimi zülallarla zəngin qidalardan istifadə edilməsi daha yaxşıdır. Həmin qidaları sevməyənlər paxlalı bitkilərdən - qarğıdalı, noxud, lobyadan daha çox istifadə etməli və ya onları salatlara əlavə edib yeməlidirlər",- deyə həkim-diyetoloq fikrini yekunlaşdırıb.

## "Neftçi" məşqləri dayandırdı



Bakının "Neftçi" futbol klubu məşqləri koronavirusa kütləvi yoluxmalarla əlaqədar dayandırıb. Klub televiziyasının məlumatında deyilir ki, dünənə və dekabrın 5-6-na nəzərdə tutulan hazırlıq prosesləri ləğv edilib. Komanda növbəti həftənin ilk günündə bir araya gələcək. Hazırda klubda ümumilikdə 9 nəfərin koronavirusa yoluxduğu açıqlanıb.

Bunlar "Neftçi"nin baş məşqçisi Samir Abasov, onun köməkçiləri Qədir Həsənov, Vəfadar Quliyev, qapıçı Kamran İbrahimov, müdafiəçilər Anton Krivotsyuk, Mert Çelik, Mamadu Mbou və Voyislav Stankoviç, yarımmüdafiəçilər Fəhmin Muradbəyli və Sabir Buqrindir. Əvəzedici komandada isə Fərid Əsgərov və Vüqar Həsənovda infeksiya aşkarlanıb.

Qeyd edək ki, "Neftçi" Azərbaycan Premyer Liqasında növbəti oyununu dekabrın 5-də səfərdə "Sabah"a qarşı keçirməli idi. Lakin görüş qeyri-müəyyən tarixə təxirə salınıb.

## Bu gün dollar neçəyə satılacaq?




Azərbaycan Mərkəzi Bankı (AMB) dekabrın 7-nə olan USD-/AZN rəsmi məzənnəsini açıqlayıb.

AMB-dən xezerxeber.az-a bildirilib ki, bankın dekabrın 7-dən etibarən USD-/AZN rəsmi məzənnəsi 1,7000 manat səviyyəsində müəyyən edilib.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600